REGION PRESS

№13 (188) 30.10.2015

Qəzet 2008-ci il martın 15-dən çıxır

İctimai qəzet "რეგიონ პრესი" საზოგადოებრივი გაზეთი

www.amm.ge

# Gürcüstan BMT-nin İnsan Haqları Şurasının üzvü oldu

Şərqi Avropa ölkələri qrupundan Gürcüstan müvafiq olaraq 177 səs toplayaraq üzvlüyə haqq qazanıb, Sloveniya isə 179 səslə üzv olub. Ümumiyyətlə isə BMT Baş Assambleyasının İnsan Haqları Şurasına 18 yeni üzv seçilib. Qərbi Avropa və digər ölkələr qrupundan isə Şuraya İsveçrə, Almaniya və Belçika seçilib. Afrika ölkələri üçün olan 5 vakant yer Toqo, Efiopiya, Kot d-İvuar, Keniya və Burundi tərəfindən tutulub. Asiya ölkələri qrupundan Şuraya Monqolustan, Qırğızıstan, Koreya Respublikası, Filippin, Latın Amerikası və Karib hövzəsindən Panama, Ekvador və Venesuela Şuraya daxil olub. Qeyd edək ki, İnsan haqları üzrə Şuranın yaradılması barədə qərar 2005-ci ildə qəbul edilib. Şuranın səlahiyyətləri və onun yaradılması barədə qətnamə isə BMT BA-nın 15 mart 2006-cı il qətnaməsi ilə qəbul edilib. İnsan Haqları üzrə Şuranın tərkibinə 47 dövlət daxildir. Şuranın üzvləri 3 illiyə seçilir və iki dəfə ardarda seçilə bilməz. Şuranın hər üzvü Baş Assambleya üzvləri tərəfindən gizli səsvermə yolu ilə seçilir, üzvlər insan haqlarının müdafiə standartlarına nəzarət etməlidirlər. Üzvlərin fəaliyyətində insan haqlarının kütləvi və sistematik pozulması halları müşahidə olunduğu halda, onların Şurada iştiraklarına Baş Assambleya üzvlərinin 2/3 səs çoxluğu ilə xitam verilə bilər.



# Gürcüstanda "NATO həftəsi – 2015"-in açılışı oldu




***Oktyabrın 25-də Gürcüstanda "NATO həftəsi – 2015"-in rəsmi açılış mərasimi oldu.***

Tədbir Tbilisi şəhər Sakrebulosunun binasında baş tutub. NATO həftəsinin açılışında Prezident Qiorqi Marqvelaşvili də öz xanımı ilə birgə də iştirak edib. Eləcə də Xarici İşlər naziri, nazir müavini Qiorqi Kvirikaşvili, Avropa və Avroatlantika strukturlarına inteqrasiya məsələləri üzrə Dövlət naziri David Bakradze, diplomatik korpus nümayəndələri, NATO informasiya mərkəzinin əməkdaşları da iştirak ediblər.

Xatırladaq ki, NATO həftəsi Gürcüstanda artıq 8 ildir ki, qeyd olunur və Avropa və Avroatlantika strukturlarına inteqrasiya məsələləri üzrə Dövlət aparatı, Müdafiə nazirliyi, NATO informasiya mərkəzi və Gürcüstanda Rumıniya səfirliyinin dəstəyi ilə həyata keçirilir. Həftə çərçivəsində paytaxtda və regionlarda müxtəlif tədbirlər qeyd olunacaq.

NATO həftəsi noyabrın 8-də "NATO kuboku" media turniri ilə başa çatacaq.

# 36-cı "Tbilisoba" qeyd olundu

Hər il olduğu kimi, bu ilin oktyabrında da növbəti "Tbilisoba" bayramı qeyd olunub. Bu bayram şənliyi bir sıra möhtəşəm tədbirlərlə yadda qalıb. Belə ki, çay, bal, müxtəlif xörəklərin festivalları, kənd təsərrüfatı məhsullarının satış-yarmarkası təşkil olunmuş, idman yarışları keçirilib.



Tədbir böyük konsert proqramı ilə yekunlaşıb.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili və hökumətin üzvləri tədbirin keçirildiyi Rige parkında olmuşlar.

Cari "Tbilisoba"da 11 nəfərə Tbilisinin fəxri vətəndaşı adı verilib.

Bayramda Marneuli bələdiyyəsinin təşkil etdiyi pavilyonda rayonda istehsal olunan kənd təsərrüfatı məhsulları, bal və s. nümayiş etdirilib.

**"Gürcüstan"**
*81-82 (12.355)*

# Marneulidə Mixeil Cavaxişvilinin 135 illik yubileyi keçirilib

Marneuli bələdiyyəsi özünüidarəsinin təşəbbüsü və dəstəyi ilə oktyabrın 25 də Serakvi kəndində görkəmli gürcü yazıçısı Mixeil Cavaxişvilinin 135 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.



Tədbirdə Gürcüstanın mərkəzi və yerli hakimiyyət nümayəndələri, görkəmli yazıçılar, aktyorlar, ictimai xadimlər və yazıçının ailə üzvləri iştirak ediblər. Yubiley tədbirində Mixeil Cavaxişvilinin həyat və yaradıcılığı barədə danışılıb, yeli yaradıcı qruplar və Kote Marcanişvili adına teatrın aktyorları Cavaxişvilinin məşhur romanlarını və həyatının maraqlı epizodlarını səhnələşdiriblər.

Tədbir çərçivəsində Marneulili rəssam Manuçar Papidzenin fərdi əl işləri və Marneuli bələdiyyəsində mövcud mədəni abidələrin rəsmləri nümayiş etdirilib.

***(Davamı səh. 5-də)***

## Türkiyədə Cümhuriyyət bayramı qeyd olunub




Səh.2-də

## Bu dağların Abbası *(retro)*

İbrahimxəlil



Səh.5-də

## ALLAHVERDİ BƏY VƏ XUDU BORÇALI

Mirzə Məmmədoğlu



Səh.7-də

## Şair Səadət Buta haqqında bir neçə söz



Güllü Eldar (Tomarova)

Səh.10-da

# Nazir məktəbdə

Tbilsi şəhərində fəaliyyət göstərən M.F. Axundzadə adına 73 saylı Azərbaycan ümumi məktəbinin tədris müvəffəqiyyətlərinin əks-sədası nəinki Gürcüstanda, həm də onun sərhədlərindən kənarda şöhrət tapmışdır. Oktyabr ayının 8-də Gürcüstanda işgüzar səfərdə olan Azərbaycan Respublikasının Təhsil naziri Mikayıl Cabbarovun görüş gündəliyində bu məktəb də var idi. Nazir məktəbdə olarkən ona məktəbin direktoru Salman Pirməmmədov tərəfindən məktəbin tarixi, onun iş prinsipi, müəllim, şagird heyəti haqda ətraflı məlumat verildi. Nazir məktəbin demək olarki, bütün siniflərində, onun fənn, laboratoriya otaqlarında və eləcə də məktəbin mənəvi inkişaf və insani formalaşma otağında olmuşdur. Naziri müşayiət edənlər, o cümlədən Gürcüstan Təhsil və Elm nazirinin müavini Lia Qiqauri, Azərbaycan Respublikasının Gürcüstandakı səfiri Azər Hüseyn, səfirin müşaviri Samirə Ağayeva, başqa rəsmi və məsul şəxslər, məktəbin təlim və tərbiyə prosesinin həqiqətən təqdirə layiq olduğunu və bundan çox məmnun qaldıqlarını bildirdilər. Nazir M.Cabbarov və onu müşayiət edənlər məktəbin pedaqoji kollektivi ilə görüşüb, təlim-tədris məsələləri haqda maraqlı və işgüzar söhbət keçirdilər. Nazir təlim prosesinin daha səmərəli və yüksək səviyyədə keçməsini təmin edən müasir metodiki vəsaitlərlə yardım edəcəyini vəd etdi. Nazir M. Cabbarov Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən Tbilisi şəhər M.F.Axundzadə adına 73 saylı Azərbaycan ümumi məktəbinin təlim, tədris və tərbiyə işlərində əldə etdiyi yüksək göstəricilərə görə nazirliyin fəxri diplomu ilə təltif olunduğunu bildirdi və "Ağıllı lövhə" adlanan diplomu məktəb direktoruna təqdim etdi, əvəzində isə məktəbin yüzillik tarixinə həsr edilmiş "Üç əsrin yol yoldaşı" kitabı nazirə hədiyyə olundu.



Görüşün sonunda məktəbin bir qrup müəllimi nazir M. Cabbarov ilə birlikdə xatirə şəkili çəkdirdilər.

**Qəhrəmanlar**

# Ceyms Appaturay: *"Gürcüstanın NATO-ya qoşulması üçün hər cür imkanı var"*

Bu sözləri NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturay Tbilisidə başlayan Cənubi Qafqazda müdafiə və təhlükəsizlik məsələlərinə həsr olunan III Forumda deyib.



Onun sözlərinə görə, Gürcüstan bu istiqamətdə cəhdlərini davam etdirməlidir. C.Appaturay qeyd edib ki, bunun üçün müvafiq inkişaf proqramı işlənib hazırlanıb və Gürcüstan üçün lazımi vasitələr yaradılıb. "Biz 15 il əvvəllə müqayisədə Gürcüstanın çox tərəqqi etdiyini görürük. Ölkədə müstəqil məhkəmə mövcuddur, şəffaf və azad media var, şəffaf seçkilər keçirilir", deyə C. Appaturay bildirib.

Qeyd edək ki, ikigünlük Gürcüstana səfəri çərçivəsində NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Gürcüstan baş naziri İrakli Qaribaşvili ilə görüşüb. NATO rəsmisi və Gürcüstanın Baş naziri NATO-Gürcüstan münasibətlərinin və strateji məsələlərin düzgün istiqamətdə inkişaf etdiyini bildiriblər. Onlar həmçinin Varşava sammitinə hazırlıq məsələlərini də müzakirə ediblər.

**Nizami Məmmədzadə**

# Yeni layihə - elekron qeydəalıcı

Birləşmiş Su Təchizatı şirkəti yeni layihə – «elekron qeydəalıcı»nın həyata keçirilməsinə başlayıb. İlk pilot proqramı Marneulidə həyata keçirilir. Proqrama uyğun olaraq bilgisayardan istifadə etməklə sərf olunan suyun cari göstəriciləri bazada qeydə alınır. Təqdim olunan sistem vasitəsi ilə abonent öz sayğacının dəqiq göstəricisini biləcək. Bundan başqa, elektron qeydəalıcı sayğacın zədələnmə hallarını vaxtında aşkarlayacaqdır ki, bu da dərhal münasibətin bildirilməsinə imkanlar verir və yekun nəticədə xidmətin keyfiyyətini yaxşılaşdıracaq.

# Turizm diqqət məkəzində

2017-ci ildə Gürcüstan Avropa və Asiya dağ kurortları konfransına ev sahibliyi edəcək. Dünya turizm təşkilatı bu qərarı cənubi Koreyada keçirilən görüş zamanı təsdiqləyib. Ulsan şəhərindəki konfransda Milli Turizm administrasiyasının və dağ kurortlarının inkişafı şirkətinin rəhbərləri iştirak edirlər. Konfransda dünyanın müxləif ölkələrindən 500-ə qədər nümayəndə heyəti iştirak edir. Paralel olaraq Milli Turizm administrasiyasının rəhbəri dünya turizm təşiklatının rəhbəri ilə görüşüb.

**Mirzə Məmmədoğlu**

# Veteranlar üçün kənd salınacaq

Gürcüstanda veteranlar üçün kənd salınacaq. Veteranların işi üzrə Dövlət Xidmətindən verilən məlumatda həmin kəndin Qardabani rayonunda salınacağı və tikinti işlərinin gələn il başa çatdırılacağı qeyd olunub. Sorğu olunan veteran ailələrindən 20 mini Azərbaycanla həmsərhəd ərazidə yaşamaq niyyətində olduğunu bildirib. Yeni kənddə veteranlar şəxsi evlərdə yaşayacaqlar, ancaq onların evi, yaxud torpaq sahəsini satmaq hüququ olmayacaqdır. İlkin mərhələdə buraya 550 veteran ailəsi yerləşdiriləcəkdir.

# Türkiyədə Cümhuriyyət bayramı qeyd olunub




Türkiyə Cümhuriyyətinin yaranmasının 92-ci ildönümü münasibətilə Ankarada rəsmi mərasim keçirilib.

Mərasimdə Prezident Rəcəb Tayyib Ərdoğan, Baş nazir Əhməd Davudoğlu və digər rəsmi şəxslər, siyasi partiyaların rəhbərləri, ölkə ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərə - Anıtqəbir ziyarət olunub. Atatürkün məzarı önünə əklil qoyulub, xatirəsi yad olunub.

Prezident Rəcəb Tayyib Ərdoğan mərasimdə çıxış edib.

Türkiyənin milli bayramı – Respublika günü münasibətilə təşkil olunan mərasimlər gün ərzində ölkə ərazisində davam edib.

Xatırladaq ki, 1923-cü il oktyabrın 29-da türk dünyasının böyük oğlu Mustafa Kamal Atatürkün rəhbərliyi ilə Türkiyə Cümhuriyyətinin yaranması bəyan edilib.

# Məhərrəmlik mərasimləri

## *"Kərbəla hadisəsinin həqiqətləri" mövzusunda seminar keçirilib*

Tbilisi şəhərində "Kərbəla hadisəsinin həqiqətləri" mövzusunda Müsəlman Qadınlar İcmasının növbəti elmi seminarı keçirilib.

Bu barədə Gürcüstan Müsəlmanları İdarəsinin sədri hacı Ramin İgidov məlumat verib.

O deyib ki, elmi toplantının iştirakçıları əsasən xanımlar, din xadimələri və tələbələrdən ibarət olub.




Seminarda tanınmış islamşünas Hacı Məhəmməd Baqir Saivər, "Alulbeyt" adına Mədəniyyət Mərkəzinin sədri hacı Faiq Nəbiyev, Müsəlman Qadınlar İcmasının üzvü Xəyalə Əliyeva və həzrət Zeynəb (s.ə) Birliyinin üzvü Rəna Yolçuyeva mövzu ətrafında çıxış ediblər. Videoçarxlarda mərsiyələr izlənilib.

Seminarın sonunda hacı Ramin İgidov ruhani qonaqlarla məhərrəm ayında (Ərbəin gününə qədər) "Zeynəbin (s.ə) carçıları" adlı aksiya çərçivəsində dəstə şəklində bölgələrdə müsəlman xanımlarla görüşəcəklərini bildirib, onlara Kərbəla həqiqətlərini çatdıran İcma üzvlərinə hədiyyələr təqdim edib.

Seminardan sonra iştirakçılar ehsan süfrəsinə dəvət olunublar.

## *Tasua yürüşü*

Marneuli şəhərində Ümumi Gürcüstan Müsəlmanları Ali Dini İdarəsi, İmam Əli (ə) adına xeyriyyə fondu, Marneuli imam Əli (ə) məscidi və Əhli-beyt cəmiyyətinin təşkilatçılığı ilə Tasua yürüşü keçirildi. Yürüşdə Gürcüstanın müxtəlif bölgələrindən Əhli-beyt aşiqləri iştirak etdilər. Əzadarlar sinə vurmaqla Əhli-beyt cəmiyyətinin önündən imam Əli (ə) məscidinə kimi piyada yol getdilər.



Məscidin önündə əzadarlar qarşısında axund Hacı Hacıyev çıxış etdi. O, öz çıxışında İmam Hüseyn (ə) inqilabının mahiyyətinə işarə etdikdən sonra, islam ümmətini və eləcə də, Gürcüstan müsəlmanlarını narahat edən bir neçə mühüm məsələyə toxundu.

# İrakli Qaribaşvili: *“Bu gün ölkəmizə hər birimizin tükənməz əməyi və təmənnasız xidməti gərəkdir. Bizim vahid və güclü dövlət yaratmağa gücümüz var!”*

*GÜRCÜSTANIN BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ MÜSAHİBƏ:*

**— “Gürcü Arzusu”nun 3 illik hakimiyyətini necə qiymətləndirərdiniz və əsas nailiyyət kimi nəyi hesab edirsiniz?**

— Mən çəkinmədən və tam cavabdehliklə bəyan edə bilərəm ki, bir çox problem və qarşıda duran çağırışlara baxmayaraq, bu gün biz bir neçə il öncə yaşadığımız Gürcüstandan daha yaxşı Gürcüstanda yaşayırıq. Üç ildir bizim siyasətimiz xalqa, ilk növbədə, insana xidmət edir. Qorxmuş insanlar, qəmli cəmiyyət azad ölkəni qura bilməz. Yalnız azad insanlar inkişaf etmiş, demokratik dövlət qura bilərlər. Bu gün biz insanların öz fikirlərini ifadə etməkdə, intiqamdan qorxmadıqları bir ölkədə yaşayırıq. Bu gün biz məhbuslara işgəncə verilməyən, məhbusların öldürülmədiyi, biznesin terror edilmədiyi bir ölkədə yaşayırıq. Biz məhkəməni hakimiyyət təsirindən azad edən, polisi və ordunu siyasət təsirindən çıxaran, hər bir vətəndaşın hüququnu müdafiə edən, medianı dövlət nəzarətindən çıxaran, biznesi azad edən və biznes layihələrə dəstək verməyi həyata keçirən, hər bir vətəndaş üçün səhiyyəni əlçatan edən, universal səhiyyə layihəsini işə salan hakimiyyətik. Bu gün Gürcüstanın hər bir vətəndaşının tibbi sığortası var. Bizim hakimiyyət təhsili əl çatan etdi; özünün məcburi köçkünlərinin şəxsi yaşayış evləri ilə tənim edilməsinin qeydinə qaldı; Avropa İttifaqı ilə Assosiasiyalaşma müqaviləsini imzaladı; yeni əmək məcəlləsini işləyib-hazırladı. Biz fermerlərə yardım layihəsinə start verdik. Güzəştli aqrokredit layihəsinə başladıq və bu layihə ilə yeni müəssisələr maliyyələşdirildi. Yerli özünüidarəetmənin yeni məcəlləsini işləyib-hazırladıq. Bu məcəlləyə əsasən qamqebeli və özünüidarə şəhərlərinin merləri birbaşa seçkilər yolu ilə seçilir.

**— Sizin hakimiyyətinizin əsas məqsədi nədir?**

Yalnız bizim hakimiyyət azad və real olaraq demokratik seçkilər keçirə bildi. Bu, bizim hakimiyyətdə olduğumuz 3 il ərzində həyata keçirdiklərimizin sadəcə az bir hissəsinin sadalanmasıdır. Əsas odur ki, bütün bunlar hər yöndə fundamental dəyişikliklərdir. Bu proses davam edir və dayanmazdır. Buradan bizim prioritetlər, hansı yolu seçdiyimiz, necə bir ölkə tikdiyimiz və gələcəkdə nədən seçicinin bizə səs verməli olduğu yaxşı görünür. Bu gün bizim əhali, yaxın keçmişə nisbətən, hökumətə qarşı daha tələbkar oldu. Bu, ölkəmizin inkişafı və cəmiyyətin irəliləyişi üçün çox vacibdir. Bizim xalq demokratik hökumət tələb edir və buna layiqdir də. Biz indiyənə qədər olmayan, idarənin daha açıq, şəffaf və xalq qarşısında hesabat verən sistemini yaratdıq. İndi zaman gəldi ki, inkişafın yeni mərhələsinə keçək. Yeni hakimiyyətin əsas qeydinə qalmalı olduğu məsələ demokratiyanın fundamental dəyərləri ilə birlikdə insanlar üçün daha artıq imkanların yaradılmasıdır. Bizim vətəndaşlar üçün əmək və işlə təmin olunma şəraitinin yaradılmasıdır. Biz hər bir insanın həyatının nisbətən sakit, təhlükəsiz və stabil olması üçün ardıcıl addımlar atırıq. Mən inanıram ki, biz buna nail olacağıq. Bizim məqsədimiz iqtisadiyyatda, infrastrukturda, təhsildə, kənd təsərrüfatında və ya digər sahələrdə qazanılan nəticələrdən hər bir vətəndaşın, istifadə etməsidir. Bizim məqsədimizdir ki, bu yaxşılıq hər kəsə aid olsun və bunun üçün bünövrə artıq salınıb. Bizim nailiyyətləri beynəlxalq təşkilatlar tanıyırlar. Beynəlxalq reytinqlər də bunu təsdiq edir. Lakin dəqiq bilirik ki, bunlar yetərli deyil. Əsas oldur ki, bizim işimizin nəticəsi tək reytinqlərdə və rəqəmlərdə əksini tapmasın. Hər bir ailə, hər bir vətəndaşımız üçün hiss edilən və əlçatan olsun. Məhz buna görə biz gözə dəyən layihələrdən vaz keçdik və büdcəni məhz insanların əsas gərəkliklərinə, onların sosial müdafiəsinə yönəltdik. Bizim islahatlarımız bir çox insanın həyatını asanlaşdırdı və maliyyə yükündən azad etdi. Bu bizim üçün birinci növ məqsəd idi.

**— 3 il ərzində hansı uğurları xüsusilə qeyd edərdiniz?**

Biz bu gün səhiyyənin bir çox inkişaf etmiş ölkələrdə oxşarı olmayan proqramlarını həyata keçiririk. Bu gün universal sağlamlıq proqramından Gürcüstanın hər bir vətəndaşı istifadə edir. Başqa heç nəyi deməsək də, biz hepatit C-ni, bu ağır xəstəliyi aradan qaldıracaq ilk dövlət olacağıq. Bizim başladığımız layihənin dünyada analoqu yoxdur. Yeni, innovasiyalı kampaniyanın yardımı ilə biz hepatit C xəstəliyindən əziyyət çəkən 200000 nəfərdən çox insanın həyatını xilas edəcəyik. İctimai birlik, sosial ədalət və həmrəylik hissi olmadan sivil dövlət və sivil cəmiyyəti təsəvvür etmək mümkün deyil. Bu gün ayaqda durmağa başlayan ölkə üçün, cəmiyyət həmrəyliyi olmadığı halda eyni zamanda bütün problemləri həll etmək çətin olacaq. Gürcüstanın “Həmrəylik Fondu” məhz bu işə xidmət edir. Fond 3 milyon 523 larini toplaya və 136 ailəyə, xərçəngə yoluxmuş 112 körpənin və 24 gəncin diaqnostikasını və müalicəsini təşkil edə bildi. Bir daha hər bir ianəçiyə, dövlət işçilərinə, özəl sektorun nümayəndələrinə, bu xeyirxah işə öz töhfəsini verən hər bir kəsə təşəkkürümü bildirmək istəyirəm. Biz hər kateqoriyadan olan pensiyaçının, məhdud imkanlı şəxslərin pensiyalarını, yardımlarını artırdıq. Sosial müdafiəsizlər, məcburi köçkün və qaçqınlar üçün məbləği iki dəfə artırdıq. Demoqrafik balansın yaxşılaşdırılması üçün Gürcüstanın doğum göstəriciləri aşağı olduğu regionlarında hər üçüncü və sonrakı övlad üçün, dağ ərazisində – 200 lari, aran ərazisində isə – 150 lari yardım verilir.

**— Sizin hakimiyyətiniz dövründə evlərindən məcburi köçkün olanlar üçün xüsusi proqramlar həyata keçirilməyə başladı. Bu baxımdan nələr edilib və edilməyi gözlənilir?**

Məcburi köçkünlərə gəldikdə, onların hakimiyyət tərəfindən unudulduqlarını, evlərindən səs-küylü çıxarılmalarını xatırlayırıq. Biz tam olaraq yanaşmanı dəyişdik. Artıq 14.533 məcburi köçkün ailəsi yaşayış sahəsi ilə təmin olunub. Bu proses davam edir və bizim məqsədimiz hər bir ailəyə normal yaşayış şəraiti yaratmaqdır. Dəfələrlə bəyan etdik ki, keyfiyyətli və əlçatan təhsil bizim hakimiyyətin əsas qeydinə qalacaq məsələdir. 500000 nəfər şagirdin 2013-cü ildən pulsuz məktəb dərslikləri var. 1150 məktəbə, məktəb nəqliyyatı xidmət edir. Biz artıq 9 yeni məktəb tikdik və 1000-dək məktəbin yenidənqurma işlərini apardıq. Bu proses bu gün də davam edir.

**— Təhsil sahəsinə diqqət nə dərəcədə mühümdür?**

Biz hərtərəfli şəkildə istedadlı gənclərə yardım edirik. Bu gün bizim gənclərimiz artıq ölkədən çıxmadan Amerika standartlarına uyğun təhsil ala bilərlər. ABŞ-ın San Diyeqo Dövlət Universiteti ilə əməkdaşlıqla Gürcüstanın üç universitetində kimya, mühəndislik və texnologiyalar üzrə Amerika bakalavr proqramı həyata keçirilir. Biz Təhsilin Beynəlxalq Mərkəzini yaratdıq. Dünyanın aparıcı universitetlərində keyfiyyətli təhsil alan tələbələri maliyyələşdiririk.

**— Ölkədə iqtisadi vəziyyətin inkişafı üçün kənd təsərrüfatına dəstək və yerli istehsala yardım mühüm məsələdir. İşsizlik problemləri də var. Bu baxımdan sizin rəhbərlik etdiyiniz hakimiyyət nə edir?**

Biz məqsəd olaraq gürcü kəndinin dirçəlisi məsələsini qarşıya qoyduq. Bu üç il ərzində nailiyyətlə yaz işlərini dəstəkləməklə böyük miqyaslı xüsusi proqramı həyata keçirdik. Biz güzəştli aqrokreditin mühüm layihəsini həyata keçiririk. Fermerləri, sənayeçiləri uzun müddətli və əlçatan pul vasitələri ilə təmin edirik. Biz 119 yeni müəssisəni maliyyələşdirdik, 600-dən artıq müəssisə genişləndirilib. Tam şəkildə cəmi 22 mindən artıq kredit verilib, onların ümumi dəyəri 800 milyondan çoxdur. Bu gün “Gürcüstanda istehsal et”, “Güclü region – güclü Gürcüstan üçün” kimi proqramlar nailiyyətlə davam etdirilir. Bu proqramların məqsədi ənənəvi sahələrin inkişafı, müəssisələrin işə salınması, gürcü məhsulunun istehsalına dəstək və ən vacibi, yeni iş yerlərinin yaradılması, əhalinin işlə təmin edilməsi və ölkənin ayağa qalxmasına yardım etməkdir.

**— Dövlətdəki iqtisadi vəziyyəti necə qiymətləndirərdiniz?**

Siz regionda hansı vəziyyət olduğunu bilirsiniz. Lakin xoşbəxtlikdən bu, Gürcüstanın iqtisadiyyatının inkişafına az təsir göstərdi. Bu gün bizim iqtisadiyyat tempinin artması üzrə ən yaxşı göstəricimiz var və regionda ilk dəfə liderik. Baxmayaraq ki, 2013-cü ildə Gürcüstanda iqtisadi artım tempi 3,3 faiz qeydə alındı, 2014-cü ildə isə 4,8 faiz. Bundan başqa birbaşa xarici sərmayələrin həcmi artdı və bu, regionda yaranan çətin vəziyyəti nəzərə alaraq vacib nailiyyətdir. Larinin məzənnəsi məsələsi



yenə də ağrılı məsələ olaraq qalır. Dolların möhkəmlənməsi bütün dünyada məzənnə kursuna ciddi təsir göstərdi. Dollar tam olaraq bütün məzənnələrə qarşı möhkəmləndi və bizim ölkə də bu haldan qaça bilmədi. Bizim hakimiyyət bu vəziyyətin tez bir halda stabilləşməsi üçün hər şey edir. Biz çox milyonlu enerji layihələrini həyata keçiririk. Bu layihələr Gürcüstanın enerji müstəqilliyi və enerji təhlükəsizliyi zəmanətini yaradacaq. Demək istəyirəm ki, bu layihələrin hər biri peşəkar nəticələrə əsaslanır və etibarlıdır. Asiya və Avropa arasında iqtisadi və mədəni əlaqələrin dərinləşməsi imkanı verən İpək Yolunun bərpası bizim üçün yeni perspektiv açır. İpək Yolu regionu dünya əhalisinin üçdə iki hissəsini və tam daxili məhsulun 60%-ni əhatə edir. Bu, Gürcüstana əlavə imkanlar verir. Bundan başqa dərin və geniş tərkibli azad ticarət mühiti haqqında razılıq işə düşüb. İqtisadi artım, dünya bazarlarına və çatdırılmanın qlobal şəbəkələrinə inteqrasiya gürcü biznesinə, həmçinin ölkədə işləyən əcnəbi sərmayəçilərə yeni imkanlar verir. Bu, həmçinin Gürcüstana mərhələli şəkildə Avropa bazarına inteqrasiya imkanını verəcək. Bununla yanaşı, Gürcüstanı sərmayə üçün əlverişli yer kimi vacib şəkildə böyüdür. Bu gün gürcü məhsulu və xidmətinin 900 milyonluq bazara əli çatır.

**— Avrointeqrasiya baxımından ölkənin mövqeyi dəyişə bilərmi?**

Gürcüstan hakimiyyəti Gürcüstan-Avropa İttifaqı viza rejiminin liberallaşdırılması hərəkət planının həyata keçirilməsi baxımından ciddi iş apardı. Bu “Şərq Tərəfdaşlığı”nın Riqa sammitində də xüsusilə qeyd olundu. Gürcüstan hakimiyyəti demək olar ki, bütün öhdəlik və məsləhətləri yerinə yetirdi. Gürcüstanın avropalaşdırma prosesi dayanmazdır. Hakimiyyət bu yolda hər hansı bir maneənin olmaması üçün hər şey edir. Bizim ölkə yeni, mühüm bir mərhələdədir. Əsası isə odur ki, biz düz yolda dururuq. Bu gün bizim ölkəmizə hər birimizin yorulmadan işləməmiz və ölkəyə təmənnasız xidməti lazımdır. Mən inanıram ki, bizim vahid, güclü və demokratik dövlət yaratmağa gücümüz var.

**Kvira.ge saytı**

## Gürcüstan-Türkiyə sərhədində yeni gömrük-buraxılış məntəqəsi açılıb

Oktyabın 18-də Gürcüstan-Türkiyə sərhədində "Kartsaxi" adlanan yeni avtomobil gömrük-buraxılış məntəqəsi (GBM) açılıb. Paralel olaraq Türkiyə tərəfində “Aktaş-Çıldır" adlanan gömrük-buraxılış məntəqəsi də açılıb. Açılış mərasimində Gürcüstanın maliyyə naziri Nodar Xaduri, Türkiyə gömrük və ticarət məsələləri üzrə nazir Cenaf Aşcı, həmçinin Türkiyə və Gürcüstan tərəfinin yüksək vəzifəli rəsmi şəxsləri iştirak edib.




Tədbirdə gömrük-buraxılış məntəqəsinin sərnişinlərə komfort və tez xidmət olunacağı, "SARPİ" və "Vale" gömrük-buraxılış məntəqələrinə o qədər də güc düşməyəcəyi bildirilib. GBM-nin açılışı regionun sosial-iqtisadi inkişafına, ölkənin tranzit potensialının artmasına, həmçinin Gürcüstan və Türkiyə ərazisindən beynəlxalq daşımaların inikişafına əhəmiyyətli töhfə verəcək.

Tədbirdə gömrük məntəqəsindən gündə 500-600 maşın və 10 min sərnişin buraxılacağı qeyd olunub. Bildirilib ki, hazırda GBM-də 70 nəfər işilə təmin olunacaq, gömrükdə yeni iş yerləri açılacaq və əlavə gəlir mənbələri yaradılacaq.

## Yeni yardımçı stansiyanın tikintisinə başlandı

Baş nazirin müavini, energetika naziri Kaxa Kaladze, Gürcüstan dövlət elektrik sistemi müdirləri şurasının sədri Sulxan Zumburidze, Türkiyə Respublikasının Gürcüstandakı səfiri Zəki Levent Gümrükçü və Asiya İnkişaf Bankının Gürcüstanda daimi nümayəndəliyinin direktoru Yetim Elhin Kayalar Marneuli bələdiyyəsində 500 kilovat gücündə “Marneuli – 500” yardımçı stansiyasının tikintisinə başlanması mərasimində iştirak etmişlər. Müasir texnologiyalarla təchiz olunacaq “Marneuli – 500” yardımçı stansiyası 50 milyon avro dəyərində “regional elektrik verilişinin yaxşılaşdırılması layihəsi”nin bir hissəsidir. Layihənin Asiya İnkişaf Bankının maliyyəsi ilə “Gürcüstan Dövlət Elektrik Sistemi” həyata keçirilir.

Kaxa Kaladze demişdir ki, partnyorlarımızla birgə məqsədimiz Gürcüstanı etibarlı, sabit və inkişaf etmiş ölkəyə çevirməkdir. Ölkənin iqtisadi yüksəlişi Gürcüstan hökumətinin başlıca prioritetidir.

500 kilovatlıq yardımçı stansiyanın tikintisi işlərini Türkiyənin “Besti” şirkəti həyata keçirir. Stansiyanın gücü 660 meqavat/amper olacaqdır. Layihənin dəyəri 20 milyon ABŞ dolları təşkil edir və tikinti 2016-cı ilin ikinci yarısında başa çatdırılacaqdır.

Layihənin həyata keçirilməsi nəticəsində ölkənin şərq hissəsinin, xüsusilə Tbilisinin və Kvemo Kartlinin enerji təchizatı yaxşılaşacaq, energetika sisteminin etibarlılığı artacaqdır.

# Azərbaycan Respublikası




## 12 noyabr - Konstitusiya günü

Azərbaycan dövlətinin birinci Konstitusiyası 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib. Azərbaycan SSR Konstitusiyasının 1921-ci il SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib. Azərbaycan SSR-in 1978-ci il aprelin 21-də qəbul edilmiş son Konstitusiyası SSRİ Konstitusiyasına uyğunlaşdırılmış olsa da, müəyyən özünəməxsusluğa malik idi.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra yeni Konstitusiya layihəsi üzərində ciddi iş başlandı. 1994-cü ildə Prezident Heydər Əliyevin sədrliyi ilə Konstitusiya komissiyası fəaliyyətə başladı və layihə 1995-ci ildə ümumxalq müzakirəsinə verildi. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Azərbaycanın Respublikasının ilk Konstitusiyası qəbul olundu.

Azərbaycanın yeni Konstitusiyası 5 bölmədən, 12 fəsildən və 158 maddədən ibarətdir.

Konstitusiyaya ilk əlavə və dəyişiklik 24 avqust 2002-ci ildə, son əlavə və dəyişikliklər isə 18 mart 2009-cu ildə referendum yolu ilə edilib.

1996-cı il fevralın 6-da Prezident Heydər Əliyevin sərəncamı ilə noyabrın 12-i Konstitusiya günü elan edildi.

## 17 noyabr - Milli Dirçəliş Günü

Milli Dirçəliş günü — 17 noyabr 1992-ci ildə elan olunmuş, 1988-ci ilin noyabr-dekabr aylarında Bakıda olan hadisələrlə bağlıdır. Sovet rəhbərliyinin Qarabağ məsələsi ətrafında apardığı antiazərbaycan siyasəti nəticəsində XX əsrin 80-ci illərinin sonunda Azərbaycanda anti-sovet xalq hərəkatı təşəkkül tapdı. 17 noyabr 1988-ci ildə Bakının əsas meydanı sayılan Azadlıq meydanında (keçmiş Lenin meydanı) Azərbaycan xalqının uzunmüddətli mitinqləri (17 noyabr - 5 dekabr, 1988-ci il) başladı. Azərbaycanda bu hadisələr milli-azadlıq hərəkatı kimi qiymətləndirilir və Respublikanın istiqlaliyyət qazanmasında əsas amil sayılır.

# ABŞ-dan Rusiyaya koalisiyaya qoşulmaq çağırışı



Suriyada İŞİD-ə qarşı mübarizə aparan koalisiyada iştirak etmək üçün Rusiyaya "qapılar açıqdır". Bunu Pentaqonun rəhbəri Eşton Karter deyib.

"Biz Rusiyanın Suriyadakı münaqişənin həllinə pozitiv tohfə verməsi üçün qapıları onun üzünə açıq saxlayacağıq", deyə o bildirib.

Karter, bununla belə qeyd edib ki, amerikalı hərbçilər Rusiyanın beynəlxalq koalisiyanın Suriyadakı əməliyyatlarına mane olmasına və ya onun kursuna təsir etməsinə imkan verməyəcəklər.




**1918** — Osmanlı dövləti ilə Antanta arasında Mudros sülh müqaviləsi imzalandı.

**1941** — İkinci dünya müharibəsi: ABŞ SSRİ-yə 1 milyard dollar dəyərində hərbi-texniki yardım ayırdı.

**1956** — Böyük Britaniya, Fransa və İsrail Misirdən Süveyş kanalını 12 saat ərzində tərk etməsini tələb etdilər.

**1961** — SSRİ Yeni Torpaq adasında tarixdə ən güclü hidrogen bombası sınağını keçirdi.

**1967** — İlk dəfə 2 kosmik gəmi ("Kosmos-186" və "Kosmos-188") açıq fəzada birləşdilər.

**1974** — Məhəmməd Əli boks üzrə dünya çempionu oldu.

# Ermənistan prezidenti həyat yoldaşı ilə birlikdə Gürcüstana gəlir

Ermənistan pezidenti Serj Sarqsyan bu gün həyat yoldaşı ilə birlikdə Gürcüstana işgüzar səfərə gəlir. Ermənistan prezidenti səfər çərçivəsində öz gürcü həmkarı Qiorqi Marqvelaşvili, baş nazir İrakli Qaribaşvili və parlamentin sədri David Usupaşvili ilə görüşəcək.

Prezident sarayında iki dövlətin rəhbərləri KİV üçün birgə bəyanat verəcəklər. Səfərin əsas mövzusu hələlik məlum deyil. Çox güman ki, Ermənistan prezidenti Tbilisidə öz ölkəsinin İran qazının Gürcüstana nəqli üzrə regional layihədə iştirakı məsələsini müzakirə edəcək. Srağagün Gürcüstanın Baş nazirinin müavini, energetika naziri Kaxa Kaladze İrandan Gürcüstana qaz nəqlini müzakirə etmək üçün noyabrın ortalarında İrana getmək niyyətində olduğunu bildirmişdir. Həmin gün isə KİV-də İran qazının Gürcüstana Ermənistan vasitəsilə verilməsinin mümkünlüyü barədə məlumat yayılmışdır.

# Ə. Abbasov: "İkinci peykimizi orbitə bu dövlət çıxaracaq"

***Azərbaycanın ikinci peykinin orbitə çıxarılması fransız şirkəti tərəfindən aparılacaq. Bunu jurnalistlərə açıqlamasında rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov bildirib.***



"Bu peyk radar peykləri daxil olan yeni qruplaşmada olacaq. Bu da imkan verəcək ki, Azərbaycan tək telekommunikasiya imkanları yox, həmçinin də Yerin səthinin müşahidəsi imkanlarını da genişləndirsin", Əli Abbasov qeyd edib.

Xatırladaq ki, Azərbaycanın ikinci peyk proqramının dəyəri 191,36 milyon dollar təşkil edəcək.

Bu vəsait "Azerspace-2/Intelsat 38" ikinci geostasionar peykin tikintisinə və yeni yerüstü peyk avadanlığının alınmasına sərf ediləcək.

"Azerspace-2/Intelsat 38" peykinin orbitə 2017-ci ildə çıxarılması nəzərdə tutulur. Yeni peykin xidmət zonasının Avropa, Asiya, Yaxın Şərq və Afrika ölkələrini əhatə edəcəyi qeyd olunur.

Azərbaycanın ilk peyki "Azerspace/Africasat-1a" 2013-cü il fevralın 1-də orbitə çıxarılıb.

# İran Suriya danışıqlarına dəvət aldı

***Rəsmi Tehran Suriyadakı böhranın nizamlanmasına dair bu həftə keçiriləcək yeni çoxtərəfli görüşdə iştirak etmək üçün dəvət alıb. Bu barədə "Associated Press" məlumat yayıb.***



Agentliyin məlumatına görə, Suriya üzrə yeni beynəlxalq məsləhətləşməni oktyabrın 29-da Vyanada keçirmək planlaşdırılıb. İran dəvətə hələlik heç bir cavab verməyib. Görüşdə Rusiya, ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İordaniya, BƏƏ-nin XİN rəhbərlərinin iştirak edəcəyi gözlənilir.

ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Con Kirbi bir müddət sonra İranın görüşə dəvət almasını təsdiqləyib.

"Mən İranı bizim tərəfdaş adlandırmazdım, lakin o dəvət alıb", deyə Kirbi bildirib. "Dəvəti qəbul edib-etməmək onların öz işləridir", deyə o qeyd edib.

# Dünya Səhiyyə Təşkilatı əti alkoqol və siqaretlə bir tutan məruzə yayıb

Dünya Səhiyyə Təşkilatı emal olunmuş ətləri – bekon, vetçina, kolbasa və sosiskaları ürəkdamar və onkoloji xəstəliklər yarada biləcək potensial təhlükəli ərzaqların siyahısına daxil edib. Təşkilatın iddiasına görə, ətdən hazırlanmış bu məmulatların insan orqanizminə vurduğu zərər alkoqol, siqaret və asbestlə müqayisə oluna bilər.



Risk qrupunda ikinci yeri qırmızı ətdən – mal, qoyun və donuz ətindən hazırlanan yeməklər tutur. Quş və balıq əti bura aid deyil.

Dünya Səhiyyə Təşkilatı əməkdaşlarının 34 mindən çox xəstəlik tarixçəsini tədqiq edərək hazırladıqları məruzədə qeyd olunur ki, gündə qəbul edilən 50 qram qırmızı və ya emal edilmiş ət bağırsaq xərçənginin inkişafı riskini 18 faizədək artırır.

# Toni Bleyer:

## *İraqın 2003-cü ildə işğalı İŞİD-in yaranmasına səbəb oldu*

Böyük Britaniyanın sabiq baş naziri Toni Bleyer İraqın 2003-cü ildə ABŞ ordusu və onun müttəfiqləri tərəfindən işğal edilməsinin İŞİD terror qruplaşmasının yaranmasına səbəb olduğunu etiraf edib. Bu barədə Daily Mail məlumat yayıb.



"Düşünürəm ki, burada müəyyən həqiqət var. Əlbəttə, siz Səddam Hüseyni 2003-cü ildə devrildənlərin 2015-ci ildəki hadisələrə görə məsuliyyət daşımadıqlarını deyə bilməzsiz", deyə sabiq baş nazir aparıcının İraqın işğal edilməsinin İŞİD-in yaranmasına səbəb olması ilə bağlı sualını cavablandırarkən bildirib.

Toni Bleyer həmçinin işğala səbəb olmuş kəşfiyyatın verdiyi yanlış məlumatlara və rejimin devrilməsindən sonra gözlənilən hadisələrin planlaşdırılması zamanı yol verilmiş ciddi səhvlərə görə üzr istəyib

Qərb mətbuatının məlumatına görə, Toni Bleyer və Corc Buş işğaldan hələ 1 il əvvəl İraqla müharibəyə dair razılığa gəliblər.

# ABŞ-da yeni dövlət quruldu

***Nyu-Yorkda yaşayan Zaq Lansberq Utah ştatının şimal qərbindəki Box Elder qəsəbəsindən aldığı ərazidə simvolik dövlət qurub.***

Axar.az xəbər verir ki, sarı-qırmızı bayrağı, pasportu, hətta bir robot tərəfindən idarə edilən Zaqistan adında dövlətin qurucusu Zaq Lansberq bu addımını ABŞ-a üsyanı kimi əsaslandırıb:

"Gerçək bir ölkə qurmağın mümkünsüz olduğunu bilirəm. Ancaq bu simvolik dövlət qasırğa fəlakətləri və terror hadisələri qarşısında müvəffəqiyyətsiz olan ABŞ-ın idarəçiliyinə üsyanın göstəricisidir".




Qeyd etmək lazımdır ki, Lansberq "heçdən qurulan dövlət"ini 10 il əvvəl 610 dollara "eBay"-dan aldığı quraq ərazidə qurub. Bu "ölkə"nin vətəndaşı olmaq üçün 40 dollar vergi ödəmək lazımdır.

# Marneulidə Mixeil Cavaxişvilinin 135 illik yubileyi keçirilib

*(Əvvəli səh. 1-də)*

Eyni zamanda Mixeil Cavaxişvili dövrünün kənd və şəhər etno-guşələri, "İntellekt" nəşriyyatının kitabları da sərgilənib.

Qeyd edək ki, "Cavaxişviloba" bayramı Serakvi kəndində hər il ənənəvi olaraq keçirilirdi. Amma təəssüflər olsun ki, bu ənənə 1991 ci ildən pozulmağa başladı. Bu il isə Marneuli özünüidarəsi tərəfindən ənənə bərpa olundu.

Xatırladırıq ki, böyük gürcü yazıçısı Mixeil Cavaxişvili 1880-ci ildə Borçalı qəzasının (indiki Marneuli rayonunun) Serakvi kəndində anadan olmuşdur. Yazıçının böyük qızı Ketevan Cavaxişvili «Atam barədə xatirələr»



kitabında babası Sabanın azərbaycanlı və yunanlarla dostluq etməsindən, Azərbaycan dilində sərbəst danışmasından söhbət açır. O, başqa bir yerdə isə Mixeil Cavaxişvili anadan olanda Sabanın bu xəbəri Sadaxlıda eşitməsindən, qulluqçusu Abdulla ilə atı dördnala çaparaq evə tələsməsindən, yolda Abdullanın Azərbaycan mahnıları oxumasından sevə-sevə söhbət açır. O, daha sonra Abdullanın balaca Mixeili çox sevməsini, ona çoxlu Azərbaycan mahnılarını öyrətməsini, məhəbbət və xoşbəxtlikdən, kədərdən və talesizlikdən söhbət açmasını



və həmin söhbətlərin bu körpə uşağın qəlbində əbədi bir iz buraxdığını qeyd edir. Atasından, qulluqçuları Abdulladan, eləcə də onun ailəsi ilə sıx təmasda olan azərbaycanlılardan Azərbaycan dilini öyrənən Mixeil Cavaxişvili öz tərcümeyi-halında sağlığında ikən bir neçə hekayəsinin Azərbaycan dilinə tərcümə olunduğunu yazır. M. Cavaxişvili «Kvaçi Kvaçantiradze», «Cağoya sığınmışlar», «Qadın yükü», «Ağ yaxalıq», «Marabdalı Arsen» romanlarının, «Günahsız Abdulla», «İki hökm», «Qivi Şaduri», «Ləmbəli və Qaşa», «Günah» və başqa hekayələrin müəllifidir. Təəssüf hissi ilə onu da qeyd



etmək lazımdır ki, tale ona yar olsa idi, ürəkdən sevdiyi Şamil haqqında romanını və azərbaycanlılara, Borçalıya aid neçə-neçə əsər yazıb tamamlayardı. M. Cavaxişvili əsərlərinin əksəriyyətində doğma yurdu Borçalı və onun mənzərələrini sevə-sevə qələmə almış, Azərbaycan və gürcü dostluğu onun yaradıcılığının əsas ana xəttini təşkil etmişdir. Onu da qeyd etmək lazımdır ki, M. Cavaxişvili yaradıcılığına ilkin başladığı dövrlərdə jurnalistik fəaliyyəti zamanı onun təxəllüslərindən biri də «Əli» olmuşdur.

# Bu dağların Abbası

## *(retro)*



Dağların marala qalan vaxtı yaxınlaşdıqca sizə bu yazının bu vədələrə qaldığı səbəbini danışmaq həvəsim də artır.

Etiraf edim ki, bu yazının məhz bu gün qələmə alınmasına hörmətli İlyas Adıgözəllinin "Elim-günüm Sadaxlı" adlı kitabı səbəb oldu. Açığı, Abbas Abdulladan yazmaq fikrim çoxdan var idi. Məsələ burasındadır ki, adını çəkdiyim kitabda Abbas müəllimin "Sadaxlı deyəndə..." adlı Şuşa almasından da kiçik "yeməli" yazısı var; elə bu kiçicik yazı sanki mənə Abbas Abdullaya olan düzilqarlı Əyriqar borcumu xatırlatmaq üçünmüş...

Abbas müəllim bu yazıda uşaq vaxtı anası Salatın xanımla birlikdə Sadaxlının bir "məhləsi" olan Xocornuya Pəri xalasıgilə getdiklərini və sonraki bir unudulmaz səfərini qələmə alıb. Ermənistanın qulağının dibində yerləşən kənddə Abbas müəllim ermənilərin də tez-tez girdiyi kənd dükanına girir və divarda yaxşı tanıdığı rəsmi görür.

Abbas müəllimin xatirəsindən sitat: "Rəsmin altına rusca "Первый президент Турецкой Республики Ататюрк" (Türkiyə Cümhuriyyətinin ilk prezidenti Atatürk) yazılsa da özümü bilməməzliyə vurub soruşdum:

– Qardaş, bu şəkildəki kimdir?

– Nəyinə lazım kimin şəklidir? Atamdır!

– Atana da qurban olum, sənə də, qardaş! – deyib dükandan çıxdım".

Bu yerdə Abbas müəllimin özü demiş, "quy deyirsən qulaq tutulur", adamın içindəki sarı sim öz-özünə dillənir, məşhur Sazlı Abdullanın sazı misallı, öz-özünə çalınmağa başlayır! Bax, bu, şair Abbas Abdullanın naturasıdır!

Mən "Məmməd Arazın ortancıl oğlu" adlı yazımda Abbas Abdullanın "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktorun müavini işlədiyi dönəmlərdə (1979-1987) telefon açıb M. Araza həsr etdiyim şeiri unudulmaz şairimizin özünə oxuduğunu və unudulmaz şairimizə Sınıq körpünün o üzündən, Əyriqarın ətəklərindən gəldiyimə qədər bəzi arazbarı bilgilər də verdiyini söyləmişdim. Amma bu yazıda Abbas Abdullanın təkcə dağlar tərəfindən, "bizim dağlar" tərəfindən söz aşmaq niyyətim var. Baxmayaraq ki, Abbas müəllimin ilk şeirinin mənim doğulduğum 1957-ci ildə Tiflisdə işıq üzü görməsindən tutmuş, Taras Şevçenkodan etdiyi tərcümələrə, "Ağlı-qaralı dünya" şeirlər silsiləsinə, "Ulduz" jurnalının da "sükançı"sı olduğuna, bir müddət qardaş Türkiyədə can Azərbaycanın Baş konsulu vəzifəsində çalışdığına qədər məlumatım var.

Danqır dedi-qodularla dolu 90-cı illərdə Abbas müəllimin doğma "Bolus Kəpənəkçisi"ndən alapaça aralı yerləşən Süsən-Sünbüldə şair haqqında iki qəddar qeybət gəzirdi: birincisi bu idi ki, bəs deməzsənmi, Abbas Abdulla öz qohum-qələvəsini Bakıda pasport qeydiyyatına saldırırmış. İkincisi, "Qəbirdə də yatasıyam üzüm dağlara-dağlara" deyib hönkürən şair, bəzi baltadiş Süsən-Sünbüllülərə görə, sən demə, yalan yazırmış: yoxsa bu qədər illər ərzində bizim dağlara bir dəfə də olsun baş çəkməzdimi?

İmam Səccadın (ə) sözləri misallı, eşitmək haqqı olan qulağımı qeybəti eşitməkdən və "eşidilməyi rəva olmayan hər bir şeydən uzaq saxlasam da" Abbas Abdullanın ümmət ünvanına söylənənlər qulaqlarıma taxılıb qalırdı. Çünki əgər bu qeybəti qadınlar eləsəydi bəlkə də fikir verməzdim. Amma bunu özlərini günah kəffarəsi sayan bəzi kişilər danışırdılar. Ağlınızı Kəpənəkçiyə, Sadaxlıya, Dəllərə, Qarayazıya, ya da Qaraçöpə verməyin: belələri Süsən-Sünbüldə düjün-düjündür...

Abbas müəllimi son dəfə iyulda – Armudlu yaylağında, nədənsə "Yaylaq günü" deyil, "Elat günü" adlandırılmış bəhri-təvil bayramda gördüm. Şair dostum Nizami Paşa Saraclı ilə məni maraqlı keçən at yarışına baxmağa dəvət etdi. Deyim ki, "bu ağır taxtalı, lopabığ kişi" (ifadə şair Allahverdi Təhləlinindir) yaylaqlara "yaraq-əsbab" yaraşan köhnə kişilərdəndir. Onun "Qaqarinli dünya" adlı bir şeirində deyilir:

*Ayaqyalın, başıaçıq bir rus balası*
*çiynində torbası*
*göyüzünə ulduz yığmağa gedib;*
*qayıdıb gələr...*

Həmin şeirdəki oxşar təəssürat, poetik lövhə misallı, Abbas müəllim mənə indi dağların üstü ilə karvan yeridən – unudulmaz Səməd Vurğunun "üstünnən karvan yeriməz" misrasının həzin-həzərat həqiqətinə rəğmən – səbir-qərar sarvanı xatırladır.

Deməsə adamın gözlərinə ağ damar: biz – "səksənincilər" ədəbi nəslinin Gürcüstan əsilli nümayəndələri Abbas Abdulladan az şey öyrənmədik...

O, 1976-cı ildə "Bolnisi" mehmanxanasında inzibatçı Mariya Nikolayevnaya hörmət dolu "xitab"ını belə tamamlayıb:

*Sən müqəddəs Məryəm olmadığıntək,*
*Abbas Abdulla da Şah Abbas deyil...*

Tarixilik prinsipi ilə yanaşanda, cəmi 39 il bundan əvvəl də olsa, A.Abdulla bu gün "Yaylaq günü" bayramının kimdə fobiya yaradacağını, "vahimə" doğuracağını hələ o vaxt görə bilmişdi. Mən də bu bayramın badəpərəst tərəfini bəyənmirəm. Amma hər bir şair öz yerinə özü danışmalı deyilmi? İndi, misal üçün, niyə şair Abbas Abdullanın adından Mirzə Mikrob, ya da N. Burculadze danışmalıdır? Dağlar, yaylaqlar Abbas Abdulla kimi şairlərin "quzu kababı" (ifadə Aida Tağınındır) iştahlı istəyi yox, poetik auditoriyası, ədəbi ərazisidir! O üzdən də o, dağlardan yazanda da insanın hər zaman məxsusi və müstəsna olduğunu nəzərə çapdırır. Şair bir kimsədən ancaq kağız üzərində, özü də öz "leylək qələm"i ilə üstün ola bilər! Abbas Abdullanın – olsun Yetim Gürcü, olsun Terenti Qraneli, Paolo İaşvili ! – hər dəfə siyasi mətləbdən deyil, məhz mədəni mətləbdən söz açmağı, yazmağı təkcə doğulduğu, hazırda yaşadığı ərazilərə deyil, bütövlükdə yeganəmiz Yer üzünə sevgilərdən qaynaqlanmırmı? A. Abdulla hələ 1969-cu ildə yazdığı "Çəmənlərin nəğməsi" adlı şeirində dediyitək, ömürbillah razı olmaz ki, insan deyilənin üstündən acı "mart küləyi" əsə! Bu, şairlərin xasiyyətnaməsidir. O, özü də bir lirik qəhrəman olaraq təkcə öz daxili aləmini əks etdirmir, onun fərdi duyğuları ümumilik qazanaraq dünyəvi-bəşəri olur. Əsl insan, xalqları tərəqqi və birlik (bu günkü modern Süsən-Sünbül dili ilə: inteqrasiya) yoluna çağıran unudulmaz gürcü yazıçısı İlya Çavçavadze haqqında "Ömür yolu – ölüm yolu" adlı poeması barədə ancaq imansızlar "anti" danışa bilər... Bu yerdə Yunus Əmrənin yazdığı da çox yerinə düşür:

*Dünya mənim rızqımdır;*
*xalqı mənim xalqımdır...*

Yəni şair o qədər bəşəri, o qədər adəmidir ki, onun nə torpağı, nə yarpağı, nə də papağı... ortaq düşməz! Heç bir zaman!

"Çocuq ana-babasını tanıyan kimi" Abbas Abdulla da buraları, buralar adamını milli mənsubiyyətindən asılı olmayaraq gözəl tanıyır. Tanımaqla kifayətlənmir, hər dəfə əmanətdar sevgisini ərməğan edir.

Biz tərəflərdə son zamanlar işi-peşəsi şairlərin-yazıçıların qanadını qırmaq olan, az qala addımbaşı Linç məhkəməsi quran modern "bukmekerlər" – internet trolları peyda olub: Füzulidən tutmuş, Zəlimxan Yaquba qədər hamımızı "qəyfəlik"də (Süsən-Sünbül üslubu ilə həm də qafiyəpərdazlıqda) ittiham edirlər. "Yaylaq günü"ndə bir nəfər gənc yazar Abbas müəllimə bu yöndə şiveyi-matəmini bildirdi. Abbas müəllim də – mübaliğə olmasın – qədim-qayım adamdır axı! Yoxsa "Urum-Kırım arası"nı yaza bilərdimi? Telli təbəssümlə dedi ki, şeirə "şirk" qoşanlar, küfr yağdıranlar, spekulyatorlar olmasa, şairliyi həyat tərzinə çevirənlər, poeziya ilə nəfəs alanlar bu qədər çox olardımı? Sonunda gənc yazara unudulmaz Müşfiqin misralarını da xatırlatdı:

*Yazalım – özümüzü öyməyəlim;*
*Füzuliyə dəyməyəlim.*

Abbas Abdulla "Nazimin heykəli" adlı şeirində yazır:

*Nazimin heykəli Parisdə –*
*Yağmurluğu qolunun üstdə,*

*Nazimin heykəli Bakıda,*
*Kiyevdə, Tiflisdə, Üsküpdə.*

*Həy yerdə, hər yerdə*
*Vətənə uzanıb Nazimin əli...*

Abbas müəllimin özünə gəldikdə, o, əli, dili, qəlbi ilə Sınıq körpünün bəri üzünə, Əyriqarın ətəklərinə bütün varlığı ilə bağlı sənətkardır. Özü demiş:

*Səndən uzaqlarda açdım gözümü,*
*Həsrətin içimi doğradı, vətən.*
*Qara torpağına sürtdüm üzümü,*
*Üzüm el yanında ağardı, vətən.*

**P.S.**

***Abbas müəllimin qələm tutan barlı barmaqlarına baxa-baxa fikrimdən keçdi ki, şeirimiz bizdən uzun yaşayacaq. İnşallah!***

**İbrahimxəlil**

# El adamı



Adətən, insana qiymət o, həyatdan köçəndən sonra verilir. Axı, niyə? Olmazmı ki, özü sağlığında görsün ona verilən qiyməti? Nə yaxşı ki "nə əkərsən, onu da biçərsən" deyimində olduğu kimi, kim nə əkirsə, onu da biçir, heç kəs unudulmur. Ürəklərdə qurulan abidələri isə heç bir qüvvə dağıda bilməz. Ürəklərdə öz abidəsini quran, gözəl insan, gözəl xeyriyyəçi, nümunəvi ailə başçısı özü dünyanın o başında olsa da (Rusiya), ürəyi doğma vətənində döyünən, elinin, obasının ən dəyərli, ən ləyaqətli, xeyriyyəçi oğlu Məlikqasımov Xıdır haqqında gec də olsa, əlimə qələm almağı bir el qızı kimi özümə borc bildim.

Hər kəsə bəlli olan 1988-ci ilin ab-havası bizim Borçalıdan da yan keçmədi. Bütün bölgələrdə olduğu kimi Borçalının Bolnisi, Kəpənəkçi kəndlərindən də Azərbaycana axan çox oldu, qalıb elinə-obasına vüqarla dayaq olanlar da. Həmin ərəfələrdə, axının qarşısını almaq məqsədilə ümumi mənafeyi öz mənafeyindən qat-qat üstün tutub, rahat işini-gücünü atıb, yumşaq kreslosunu kreslo hərislərinə təhvil verib Borçalıya, doğmalarının səsinə səs verməyə gəldi Göyüşov Binəli İbrahim oğlu.

Sonralar kəndin canlanmasında, qaçqınların qismən də olsa, qarşısının alınmasında insanlarda vətənpərvərlik ruhunun xeyli formalaşmasında Binəli müəllimin xidmətləri danılmazdır. O vaxtlarda Allah-Taaladan ona bir köməkçi, bir dayaq duran arzulayırdım. Sən demə, el dilində desək, papaq altında oğullar da varmış. Belə oğullardan biri, həm də birincisi Rusiyada yaşayıb imkanlı şəxs kimi tanınan, xeyriyyəçilik zirvəsində birinci olan Xıdır Məhəmməd oğlu köməyə gəldi və Binəli müəllimə "siz narahat olmayın, mənim planlarım çoxdur, hələki çoxdankı arzumdur kəndin görkəmli bir yerində bir məscid tikdirmək, sonra sizə nə lazımsa kömək edəcəm".

Doğrudan da, bu xeyriyyəçi insan kəndin mərkəzində elə bir məscid tikdirdi ki, sanki başdan-ayağa qeyrətdir, əzəmətdir bu Allah evi. Tikinti, haradasa, iki ildən artıq çəkdi. İş gedən vaxtlarda şahidi olduğum bir mənzərə məni heyran qoydu. Xıdır müəllim fəhlə paltarı geyinib fəhlələrlə birlikdə işləyirdi. Donub qaldım. Öz-özümə, "İlahi demək, insani keyfiyyətlərin hamısı bu insanda birləşibmiş?!" – dedim.

17 avqust 2007-ci ildə məscidin açılışı oldu. O gün sanki bu Allah evindən nur yağırdı. Xoşbəxtlikdən, bu tədbirdə iştirak etmək mənə də qismət olmuşdu. Xeyli qonaqlarımız vardı, rəsmi və ya qeyri-rəsmi. Anamız Azərbaycandan, Rusiyadan, Türkiyədən və başqa-başqa bölgələrdən bu işığın, bu nurun ətrafına xeyli insanlar toplaşmışdı, üzrlü səbəblərə görə gələ bilməyən ziyalılarımız telefonla əlaqə saxlayıb təbrik edirdilər.

O gün beş yüz nəfərə yaxın insana öz həyatində möhtəşəm bir ziyafət verdi bu xeyriyyəçi insan. Sonra məscidin idarə olunmasını insanların məsləhəti ilə elimin-obamın nurlu simalarından biri, el içində yetərincə hörmətə malik gözəl səsi, boy-buxunu, savadı ilə fərqlənən, kəndin baş mollası Nənəcanov Süleyman Əfəndiyə etibar etdiyini bəyan etdi. Bir neçə gün sonra, müqəddəs Ramazan ayının ilk günlərinin birində məsciddə namaz qılarkən möcüzəli şəkildə nura qərq olub haqqın dərgahına qovuşdu Süleyman Əfəndimiz. Allah rəhmət eləsin!

Haqq, ədalət naminə deməliyəm ki, Xıdır müəllimin ömürgün yoldaşı rus olsa da öz ailəsinə, dinimizə, adət-ənənəmizə çox hörmət edir. Məscidin hazır olan vaxtlarında ay-ulduzun xırdalığına etiraz edib, sökdürüb, böyüyünü qoydurmuşdu.

Bildiyimə görə, Xıdır müəllimin bütün uğurlarında bu qadının əməyi çoxdur.

Xıdır müəllim vətəndən çox-çox uzaqlarda yaşasa da, ən azından ildə bir-iki dəfə ulu babamız, millətimin qeyrət simvolu İsrafil ağa başda olmaqla ululamızın uyuduğu torpağa, doğma kəndi Kəpənəkçiyə gələr, xeyir-şərdə iştirak edər, camaatın güzəranı ilə maraqlanar və ehtiyacı olanların ehtiyaclarını ödəyər.

Hər dəfə görüşlərində deyir ki, mənim arzularım çox şaxəlidir, arzularımın şahı isə budur ki, nəinki Kəpənəkçinin, bütün ellərimizin işığı, ocağı gur yansın.

*Gör nələr yetirib, bu gözəl diyar,*
*Şair Zəlimxanla oldu bəxtiyar,*
*Deyirəm ay Lətif, nə ki, həyat var,*
*Sönməsin ocağı Kəpənəkçinin.*

**Çəmən Abbasqızı**

# Qanda şəkər




Dərs prosesində elə mövzular var ki, onları tədris edərkən insan sağlamlığının qorunması haqqında ətraflı məlumat, dərslərin daha effektli qurulmasına səbəb olur.

Tədris etdiyim kimya fənnində elə mövzuların sayı çoxdur. Dərslərdə "karbohidratlar", "zülallar", "yağlar" və s. mövzuları tədris edərkən insan orqanizminin sağlamlığının qorunmasını ətraflı izah edirəm. Dərsləri həyatla əlaqələndirib keçəndə şagirdlər üçün çox maraqlı və 45 dəqiqənin yorucu olmadığını hiss edirəm.

"Karbohidratlar" mövzusunun tədrisində ən çox "şəkərli diabet" haqqında ətraflı məlumat verirəm. Tərkibində karbon, oksigen və hidrogen olan karbohidratlar orqanizm üçün enerji mənbəyidir.

Şəkərli diabet xəstəliyi insanlara ta qədim zamanlardan məlum idi. Hipokratın dövründə bu xəstəliyin adı "diabetus mellitus" adından yaranmışdır. Mənası "şirin axıntı" deməkdir. İlk dəfə bu xəstəliyi "sulfanil amid" dərmanı ilə müalicəsi başlanıb. Amma 1954-ci ildə insulinin kəşfi ilə diabet xəstəliyinin müalicəsində tam bir dönüş yaranmışdır.

İnsulin qanda şəkərin miqdarını tənzimləyir. Bu maddəni (insulini) kəşf edən alim Belt olmuşdur. O, bu maddənin alınmasına on il əmək sərf etmişdir. Məlum olmuşdur ki, onun molekulu iki polipeptid zəncirindən ibarətdir, onlardan birində 21, digərində 30 amin turşu qalığı vardır. Zəncirlər bir-biri ilə iki disulfid körpücüyü ilə birləşmişdir. Belt 14 noyabrda dünyaya gəldiyi üçün hər il həmin günü alimlər onun şərəfinə "Dünya şəkərli diabet" günü kimi qəbul etmişdir.

Şəkərli diabet olan xəstələr daimi diqqətə və qayğıya möhtacdır. Çünki şəkərli diabet xəstəliyi sağalmayan, genetik olaraq nəsildən-nəsilə ötürülən bir xəstəlikdir. Bu xəstəliyin əmələ gəlməsində bir neçə faktor məlumdur; irsi keçmə, qorxunu, həyəcanı, travma və s. saya bilərik. Alimlərin verdiyi məlumata görə, dünya əhalisi arasında ən çox yayılmış qeyri infeksion xəstəlik hesab olunan şəkərli diabet xəstəliyi nəticəsində hər 30 saniyədən bir iki nəfər bu xəstəliyə tutulur, bir nəfər isə bu xəstəlikdən dünyasını dəyişir.

Bu xəstəliyin üzərinə vaxtınlda düşülməzsə, xəstəlik ağır nəticələr verə bilər. Lakin xəstəliyin müayinə və müalicəsi profilaktikası düzgün aparılarsa, o zaman xəstəlik tam sağalmasa da, ən azından normal bir şəkildə ağırlaşmadan davam edəcəkdir.

Bir dəfə televizor kanallarının birində 90 yaşlı diabet xəstəsi olan qadın öz çıxışında dedi ki: "Bu xəstəliyə tutulduğum üçün şükürlər deyirəm. Soruşa bilərsiz niyə? Ona görə ki, bu xəstəlik məni özümə qarşı çox diqqətcil edib. Pəhrizimi saxlayıram, həkimlər nə məsləhət edibsə, onu davam etdirirəm".

Maraqlıdır ki, diabet xəstələri psixologiyasında ciddi dəyişikliklər müşahidə olunur. Belə ki, belə xəstələr tez inciyən, daha çox diqqət tələb edən, xəstəliklərinin adı şirin olsa da, adi bir qıcığa reaksiya verən emosional insana çevrilirlər.

Müdriklərimizin bir fikri çox maraqlıdır: "Qanda şəkər faciədir, dildə şəkər şirinlikdir". Müəllim yoldaşımız, şair, publisist Mövlud Şəmistan oğlu (Allah rəhmət eləsin) deyirdi:

*Eldə səni çox sevərlər,*
*Dilində qəndin olarsa.*
*Hamı sənə hörmət edər,*
*Sözündə qəndin olarsa.*

Ulu Tanrıdan qanımızda şəkər yox, dilimizdə şəkərin bol olmasını arzulayaq!

Həkim-endokrinoloq əgər xəstənin uşaq kimi qayğısına qalmasa və bunun qarşılığında xəstə də həkimi "sevməsə" müalicə heç bir effekt verməyəcək. Dəyərli həkimlərimizin məsləhətlərinə qulaq assaq, bu xəstəliyə üstün gələrik!

**Suddarxan Kazımov**

# Kəndlərə sosial qayğı durmadan artır

Dəmyə Gorarxı ərazi vahidliyində əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün dövlətimiz bir çox mühüm addımlar atmışdır. Misal üçün deyə bilərik ki, kənd əhalisinin su, qaz təminatı, küçələrin işıqlandırılması və kəndarası yolların bərpası prosesi çox sürətlə davam edir.



Bu barədə Dəmyə Gorarxı ərazi vahidliyinin rəhbəri Heydər Musayevdən daha ətraflı məlumat almaq üçün onunla görüşdüm, işlərin çox sürətlə getməsindən məmnun olduğunu söylədi və dedi:

"Bizim ərazi vahidliyinə daxil olan Dəmyə Gorarxı, Axlı-Lələ, Kirovka və Dəmyə kəndlərində əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün çox mühüm işlər görülmüşdür və işlərimiz durmadan davam edir.

Bu gün kənd əhalisinə ən vacib olan su problemini həll etmək üçün dövlətimiz 1.650 min lari pul ayırmışdır. Artezian quyusu qazılmış, böyük həcmli su anbarı inşa edilmişdir ki, bu anbarın suyu ilə 5 kəndin əhalisini təmin etmək mümkündür.

Dəmyə Gorarxı kəndinin əhalisinin su problemi bütünlüklə həll edilmişdir. Bu kəndin su çəkilməsinə 219 min lari xərclənmişdir.

Kəndlərin küçələri elektrik işıqları ilə işıqlandırılmışdır. Qaz çəkilməsi isə durmadan davam edir. Dəmyə Gorarxı kəndinin mərkəzi küçələrinə asfalt yol salınması işi başa çatmışdır. Asfalt yolun salınmasına çəkilən xərcin ümumi miqdarı 600 min laridir.

Bu yaxın günlərdə Axlı-Lələ və Kirovka kəndlərinə su çəkilməsinə start veriləcəkdir. Qonşu Yuxarı Saral kəndinə bizim anbardan su xətti çəkilməsi planlaşdırılır.

Məktəblərimizdə də artıq dərslər başlanmışdır. Bildirirəm ki, Dəmyə Gorarxı orta məktəbində 220 nəfər şagirdin təlim-tərbiyəsi ilə 32 nəfərdən ibarət müəllim kollektivi məşğul olur.

Məktəblərimizdə də çatışmayan problemlər vardır. Çalışacağıq ki, bu problemləri də yaxın gələcəkdə həll edək. Bir az vaxt və səbirli olmağımız lazımdır.

2016-cı ildə Dəmyə Gorarxı kəndində uşaq bağçası tikilməsi də planlaşdırılır."

**Sizə işinizdə uğurlar diləyirik, Heydər müəllim!**

**Valeh Yasınoğlu,**
***Marneuli, Axlı-Lələ kəndi.***

# ALLAHVERDİ BƏY VƏ XUDU BORÇALI

Bu iki şəxs Gürcüstan tarixində mühüm rol oynayan şəxsiyyətlərdəndir. Bunlar barədə əvvəlki yazılarımda qismən söhbət açmışam. İndi bu iki şəxs üzərində xüsusi olaraq dayanmaq istəyirəm. Gürcü çarları arasında xüsusilə fərqlənən, İrəvan və Aspindza döyüşlərində fədakarlıqla vuruşan, müxtəlif döyüşlərdə 70-dən çox yara alan qəhrəman, diplomat bir çar kimi Gürcüstan tarixinə düşən II İrakliyə yaxın bir şəxs olublar. II İraklinin Allahverdi adlı başqa bir yaxın adamı da olub. Belə ki, o dövrdə Tiflisin ən yaxşı xanəndəsi Allahverdi olub. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan musiqisinin tədqiqatçısı Firidun Şuşinskinin yazdığına görə, o, Nəriman Nərimanovun ulu babası olub. Bəzi tədqiqatçılar bu iki şəxsi bir-birilə qarışdırırlar.

Allahverdi Borçalı bəylərindən Sadıq kişinin övladlarından biri olub. Yakob Qoqebaşvili Aspindza döyüşündən söz açaraq yazır: « İlk dəfə İrəvan müharibəsində bizim şanlı çarımız üç yüz nəfərlə on səkkiz min nəfərlik iranlılara qarşı mübarizə aparmış, öz əli ilə onların ən yaxşı sərkərdələrindən birini öldürmüş, düşmənin canına vəlvələ salmış, onu məğlub etmiş, çoxlu top-tüfəngi yerə saldırmış, xeyli qənimət ələ keçirmiş, düşmən başı alovlu qaçmağa məcbur olmuşdur». Həmin döyüşlərdə çox gənc olan Allahverdi çar İrakli ilə birlikdə Azadxana qarşı mətinliklə mübarizə aparmışdır. Salnaməçi yazır: «Allahverdi bir an da belə çar İraklidən aralı düşmürdü, fədakarcasına vuruşurdu». («Saliteraturi nadzili» 1832-ci il № 4).

II İrakli Azərbaycan və İran iqtidarları ilə söhbət aparmaq üçün həmişə Sadıq bəy Yadigar oğlunun köməyindən istifadə edirdi ki, bu da Allahverdinin atası idi.

Abbasqulu ağa Bakıxanov «Gülüstani-İrəm» əsərində Sadıq bəy Yadigarov barəsində yazır: «Axırda bütün istiqlal və ehtişam vəsaitinə malik olan Fətəli xan, Azərbaycan və bəlkə də, bütün İran işlərinin intizama qoymaq xəyalilə Gürcüstan valisi İrakli xanla görüşüb məsləhətləşmək binasını qoydu. İrakli xan da öz dudmanlarından Sadıq bəy Yadigar oğlunu səfir sifəti ilə Fətəli xanın yanına göndərdi. O qədim gürcü valiləri nəslindən yadigar qalıb, doqquzuncu babası, İranın qüvvətli padşahları dövründə müsəlman olmuşdu. Onun oğul və nəvələri indi də Tiflisdə yaşamaqdadırlar. Səfir Sadıq bəy Nuxada hüzuruna gəlib, hədsiz lütv və mərhəmətə nail oldu». (Qarabağnamələr. 2-ci kitab. Bakı, 1991, səh. 374.).

II İrakli 1780-ci il 5 may tarixli İanə kitabına yazdırmaqla Allahverdinin atasına belə bir fərman vermişdi: «Yadigar oğlu Sadıq bəyə Meydanda, bir tərəfi Məscidin divarı, bir tərəfi Sərmac yolu, arxada isə sizin yurd sarayınız və irəlisi Meydan olan 5 dükan». Bu yaxınlarda Yadigar oğlu Sadıq bəyin, sonralar onun oğlu Allahverdi bəyin yaşadığı Şah Abbas məscidinə söykənən yurd sarayının məşhur fotoqraf Dimitri Yermakovun çəkdiyi foto şəklini əldə etmişəm. Şəkildə binanın birinci qatındakı dükanlar aydınca görünür.



*Severian Maisaşvili. Krtsanis döyüşü.*

Sarqis Kakabadze II İraklinin qırmızı Qarabağ atına minib motal papağını gözünün üstünə basaraq döyüşçülərin müşayiəti ilə şəhərdən çıxmaq istədiyini, bu zaman bir azərbaycanlının ona kömək göstərdiyini qələmə alaraq yazır: «Bu zaman İrakli kiçik dəstəsi ilə Kaxet tərəfə getmək üçün Maxata yola düşmüşdü. Lakin Ağa Məhəmməd Şah Qacarın ordusunda olan bir nəfər azərbaycanlı xan onun yanına gizli olaraq adam göndərərək ismarlayır ki, şahın çox böyük ordusu vardır, daha təhlükəsiz bir yerə getsin. Bu vacib bilgini alan İrakli Saquramoya doğru istiqamətini dəyişir, axşam ora çatır, oradan isə Mtuletə (Tianet– M.M.) yola düşür». Bu şəxs məhz elə Allahverdi bəy olub. S. Kakabadze onun düşmən ilə fars dilində danışmasını nəzərə alaraq Ağa Məhəmməd şah Qacarın düşərgəsində olduğunu zənn etmişdir. Ana tərəfdən II İraklinin nəvəsi, şahzadə Təklənin oğlu, ata tərəfdən yüksək kübar təbəqənin nümayəndəsi olan Aleksandr Orbeliani «Ağa Məhəməd şah QacarınTiflis şəhərinə hücumu» kitabında bu mənzərəni başqa cür qələmə alır:

«Çar İrakli Avlabar körpüsünün başına çatanda, şəhərin üst yanından keçərək Diğom yolu ilə getmək istəyir. Lakin yuxarıda deyildiyi kimi, Allahverdi bəy Yadigaraşvili ona üz tutaraq deyir:

-Mənim çarım, nə edirsiniz, körpüdən keçin və Avcala yolu ilə Saquramoya tərəf buyurun. Mən qızılbaşları burada qarşılayacağam və onları hansı yola tərəf yollamağımı bilirəm. Siz rahatca gedin». (Səh.45).

Alaksandr Orbeliani başqa bir yerdə Allahverdinin II İraklinin xilas olması üçün fənd işlətdiyini belə qələmə alır:

«İranlılar daxil olanda Allahverdi bəy atla onları qarşılayır. Ondan fars dilində soruşurlar:

«Sən kimsən?

O fars dilini yaxşı bildiyindən onlara cavab verir:

– Mən Cavad xanın adamıyam.

– Əgər bilirsənsə, söylə vali (çar) nə etdi?

– Bu tərəfə, şəhərə doğru getdi-deyərək onların ağzını şəhərə doğru saldı. Onlar o tərəfə gedəndə, Allahverdi bəy atı mahmızlayaraq tezcə körpüyə tərəf yollandı və Maxat yaxınlığında İrakliyə çatdı». (səh.45).



*Yadigar oğlu Sadığın divarının bir tərəfinin şah Abbas məscidi olan sarayından bir görünüş.*
*(Yermakovun fototekasından)*

Çar II İrakli tərəfindən Borçalı bəyi Sadıq Yadigarova və onun oğullarına 1797-ci ildə verilmiş fərmandan aydın görürük ki, çar II İrakli Duşetə gedəndə dar gündə onu məhz elə soydaşlarımız da müşayiət etmişdir. Bu barədə Aleksandr Orbeliani başqa bir yerdə Çariça Darecan araba ilə hazırlaşaraq dağlara tərəf yollananda cözəl bir qadının yanında da iki qadın və üç oğlan uşağı ona yaxınlaşdığını belə yazır:

«Mənim hökmdarım, çariçam, sizin köçdüyünüzü eşitdim. Mən sizdən necə əl çəkə bilərəm? Mən də sizinlə gedəcəyəm.

Çariça həmin andaca onu səsindən tanıdı və dedi:

– Nabatxanım, sənsənmi, mənim əzizim, Nabatxanım. Gəl birlikdə olaq və çətinliyə birgə qatlaşaq». Həmin anlarda ondan bir daha uzaqlaşmamışdır. Bu qadın Allahverdi bəy Yadigaraşvilinin arvadı, qalalı, ən yaxşı tatar ( azərbaycanlı-M.M.) ailəsindən olan qadın idi. Sonra çariça ondan soruşdu:

– Mənim əzizim, Nabatxanım. Sənin ərin Allahverdi hardadır?

– Mənim ərim və bizim tayfanın bütün kişilərinin hamısı çar İrakli ilə birlikdə Soğanlıq düzündə vətən uğrunda öz qanlarını tökürlər. Çariça da ağladı, katolikos Anton da (səh.35).

Gətirilən bu sitatı şərh etməyə ehtiyac yoxdur. Bu bir neçə kəlmə çox şeyi deyir. Belə igid oğullarımız, ismətli qadınlarımızla fəxr etməliyik. Onların xatirəsi önündə həmişə baş əyməliyik. Və heç bir zaman yaddan çıxartmamalıyıq.

Fərmanda isə deyilir:

«Bizim əcdadlarımız «Sınıq körpünü sizə bağışlamışdır. Bu barədə sizə babamız Nazarali xanın (I İraklinin), çariça Annanın, əmimiz İmamqulu xanın (II Davidin - M. M.) və atamız çar Teymurazın da fərmanları olmuşdur. Ağa Məhəmməd şah Qacar Tiflisi yandırıb darmadağın edəndə sən bizim yanımızda olubsan və imkan daxilində bizə köməkliklər göstəribsən. Sənin oğulların Ağacan və Allahverdi isə Araqviyə gedəndə bizi müşayiət ediblər, can-başla bizə xidmət göstəriblər. Tiflisin darmadağın edilməsi zamanı sən çox şey itirdin, elə həmin vaxtlar sözügedən fərmanları da itirdin. Bizə sədaqətliliyinə və səmimi qəlbdən xidmət etdiyinə görə onların qüvvəsini yenidən bərpa edirik və Sınıq körpü torpaqlarını sənin öhdənə veririk».



*II İrakli qırmızı Qarabağ atında.*

Borçalı bəyi Sadıq Yadigarovun soyundan olan, gürcü dilində yazıb-oxumağı öz ana dili kimi bilən Xudu Borçalı və yaxud Xudad bəy də İraklinin və onun oğlu şahzadə Aleksandrın yaxın və sadiq dostlarından biri olmuşdur.Tarixi mənbələr göstərir ki, Xudu Borçalı Krtsanisi və Aspindza döyüşlərində fədakarlıqla vuruşmuşdur. Yakob Qoqebaşvili «Aspindza döyüşü» kitabında Xudu bəyin Aspindza döyüşü zamanı göstərdiyi şücaətlərindən söz açaraq yazır:

«Asanca başa düşə bilərik ki, korpü gürcülər tərəfindən dağıdılmış idi. Həqiqətən də belə idi. Lap elə başdan İraklinin düşmən üzərində qələbə çalmağa tam ümidi var idi və düşmənin qaçdığı anda yolunu kəsmək istəyirdi. Buna görə də ötən gecə üç seçmə igidə - bir neçə nəfər əsgər götürüb gizlicə körpüyə yaxınlaşmalı və onu dağıtmalı idi. Bu igidlər Ağababa Eristavi, Svimon Muxran batono və Xudu Borçalı idi. Onlar gecənin zülmət qaranlığında ustalıqla və sürətlə çarın əmrini elə yerinə yetirdilər ki, düşmən heç duyuq düşə bilmədi. Ertəsi gün də osmanlılar-ləzgilər üçün bu vəziyyət səhərdən qızğın mübarizəyə qoşulduğundan nəzərə çarpmamış qaldı. Körpünün dağıdılması işi düşmən qoşununun son gücünü tükətdi, hürkmüş və təşvişə düşmüş qoyun sürüsü kimi pərən- pərən oldu...»

Bu yaxınlarda dünyasını dəyişmiş tarixçi Mixail Kurdiani həmişə azərbaycanlıların nəcib xüsusiyyətlərindən, ələlxüsus Xudu Borçalının fədakarlığından ağız dolusu danışardı. O, verdiyi müsahibələrin birində Xudu Borçalı barəsində deyir:

«Xudu Borçalı Gürcüstanın milli qəhrəmanıdır. Gürcü dövlətinin möhkəmlənməsində onun xidmətləri böyükdür. Gürcüstanda onun abidəsi qoyulmalıdır. Mən və mənim dostum Roman Turçişvili çoxdandır ki, cəhd göstəririk, əvvəlki və indiki hökumətlərə məktubla da müraciət etmişik ki, Borçalıda Xudunun abidəsi qoyulsun. Heç kimdən rədd cavabı almamışıq, halbuki, abidə də bu günə kimi qoyulmamışdır. Gürcü xalqı bizim vətənə sədaqətli olan özünün bütün oğullarını tanımalıdır».

Aleksandr Orbeliani xatirələrində Ağa Məhəmməd şah Qacarın Gürcüstana hücumu zamanı Qazax-Borçalı ellərinin öz mal-qarası ilə Kartlidə sığınacaq taparaq, oradan da müəyyən hissəsi Axalsixe paşalığına keçən Borçalı qarapapaqları şahzadə Aleksandrı Axalsixədə dövrəyə alaraq ona sədaqətlə xidmət edəcəklərini ifadə etmələrini, Xudu Borçalının onunla yaxşı münasibətdə olmasını, bəzi yerlərdə Xudu Borçalının sözünün ötkünlüyünü xüsusilə qeyd edir.

Xülasə, II İrakli ilə azərbaycanlıların əlaqələrini, eləcə də gürcü-azərbaycanlı dostluğunu əks etdirən belə nümunələri, Allahverdi bəy və Xudu bəy kimi igid və mərd oğulların göstərdikləri şücaətləri tarixin qaranlıq səhifələrinə baş vurmaqla çox tapmaq və örnək göstərmək olar. Həm də təkcə örnək göstərmək yox, tarixin yaddaşında həkk olunan bu dostluq faktları üzərində indən belə də gürcü-azərbaycanlı, Gürcüstan-Azərbaycan əlaqələrini daha da genişləndirmək dövrün tələblərindən irəli gəlir. Fikrimin sonunda onu da xüsusilə qeyd etmək istəyirəm ki, biz də öz növbəmizdə, Xudu bəylər, Allahverdi bəylər kimi öz qəhrəmanlarımızı üzərə çıxartmalı, tanıtmalı, onlarla fəxr etməli, onlara bənzəməyə çalışmalıyıq.

**Mirzə Məmmədoğlu**

# Borçalıda Overton pəncərəsi

***(maddeyi-tarix)***

İnsan coğrafi iqlim şəraitini dəyişəndə yeni coğrafi mühitə necə çətin uyğunlaşırsa, mən də həmin məhrəmanə minvalla bu yeni pəncərəyə hər cür uyğunlaşmağa çalışıram: söhbət Overton pəncərəsindən gedir.

Bir zamanlar Borçalı Süsən-Sünbülündə az qala bütün fikirlərin ehtiyatla, nəzakətlə, ədəb və əxlaq dairəsində ifadəsi var idi. Xoşagəlməz, qaba sözlərin əvəzinə münasib, yumşaq ifadələr seçilirdi.

Bəs indi?

İndi Overton pəncərəsinin açılması sayəsində hər bir hadisə və hərəkəti incə tərzdə təsvir edən məcazi ifadələrdən – evfemizmlərdən az qala istifadə edilmir. Açıq-saçıq təhqirlərə qədər hər bir hadisə və hərəkət öz adı ilə çağrılır da, yazılır da!

Borçalı Süsən-Sünbülü son vaxtlar biləndərlərlə, yeni "obrazovannılar"la, internet trolları ilə, çaşqın-daşqınlarla dolduğundan Overton pəncərəsi ilə bağlı bircə bunu deyə bilərəm ki, bu, az qala dünənə qədər qəbuledilməz sayılan mövzuların dövriyyəyə buraxılması və dərhal da "möhürbənd"lə legitimləşdirilməsidir!

Əlbəttə, Süsən-Sünbülün "azad yazarlar"ı nə yeyəcəklərini, nə içəcəklərini, hansı libası geyinəcəklərini, nəyi qələmə alacaqlarını özləri bilər. Mən də, Mirzə Qələm də, eynən unudulmaz Voltersayağı, Süsən-Sünbül "azad yazarlar"ının öz fikirlərini səsləndirə bilmədikləri halda onlara dəstək vermək naminə hətta son bir kömbə çörəyimizdən də keçərdik! Sözümün toz-tozanaq və arazbarı təkrarına qayıdıram: həm söz azadlığı mənasında, həm də o arazbarı mənada ki, "Adəmdən nə bir qul törənib, nə də bir kəniz; bütün insanlar azaddır". Amma batilə qulluq edənlərin nicat tapmalarına necə dəstək olmaq olar?



Burası da var ki, ictimai və mədəni tərəqqi nəticəsində bəzi qadağalar-tabular onsuz da aradan çıxır. Amma – yuxarıda da dediyimtək – "azad yazarlar" bilməlidirlər ki, mənim və Mirzə Qələmin azadlığımızı təhdid edənə qədər azaddırlar!

Məsələn, "azad yazarlar" "Pəncərədən daş gəlir" xalq mahnısını ölsələr də oxumazlar. Ona görə yox ki, mahnının mətnində "özgəyə bel bağlama" misrası da var; ona görə ki, onlar Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın, qarqabağı qırıq şüşə yerinə saralmış qəzet yapışdırılan pəjmürdə pəncərədən deyil, odioz Overton pəncərəsindən oxuyurlar:

Məktəblərimiz bağlansın!

Sınıq körpünün bəri üzündə "Qarabağ şikəstəsi" hekayəsi oxunmasın!

Borçalıda Yazar, Yazı deyilən şey olmayıb, "yazar sürüsü" olub!

Bizdə "göysatan"dan savayı, digər peşə sahibləri yoxdur. Və sairə və ilaxır.

Sözarası deyim ki, Orxanın "Pəncərədən baxmaq" adlı hekayəsi var: dilimizə soydaşımız Nəriman Əbdülrəhmanlı uyğunlaşdırıb. Sitat gətirdiyim bu cümlə də həmin hekayədəndir: "Pəncərədən baxmaq elə əsas bir vərdişdi ki, televiziya Türkiyəyə gələndə ona pəncərədən eşiyə baxan kimi baxmağa başladılar".

Bu gün məktəblərimizi bağlatmaq həvəsinə düşənlər "Overton pəncərəsi"ndən baxmağa da adi eşiyə baxmaq kimi baxırlarsa, çox, özü də çox yanılırlar.

Amma "azad yazarlar"ın öz hərəkətlərini qəliblər qismində "Gürcüstan tarixində bir ilk olaraq" bayram eləmələri dünyanın ucqar adamı olaraq məni arazbarı mütəəssir edir. Təki onların adları gündəmdə qalsın, təki tarixə "birincilər" olaraq düşsünlər; nə eybi, hansı sahədə, kəşf əhlidirlər!

Eşitdiyimə görə, "milli məktəb" məsələsindən sonra azad yazarlar familiyalarımızda da "firqəçilik" yaratmaq istəyirlər: belə ki, Mirzə Qoturla Mirzə Mikrob "Gürcüstanda bir ilk olaraq" öz familiyalarını (sonra da bizim?) müvafiq olaraq "Qoturaşvili" və "Mikrobişvili" ilə əvəzləmək niyyətindədirlər.

...Unudulmaz Mirzə Cəlil hələ 1907-ci ildə Tiflisdə "Məzhəb azadlığı" adlı bir feyleton yazıb. Bir yerində deyilir: "...eşitmişəm ki, Dövlət Duması çalışır Rusiyada məzhəb azadlığı olsun; yəni hər bir şəxs hansı məzhəbdən, hansı məzhəbə istəsə keçə bilsin... Bunu da eşidirəm ki, Siz, yəni müsəlman vəkilləri də buna razısınız; amma mən bircə bunu bilmirəm ki, siz bu işə razılıq verəndə ağlınız haralarda idi?..

**P.S.**

***Allahın Peyğəmbəri (s) deyib: "İnsanın mayası ağıldır və ağlı olmayanın dini də yoxdur".***

***...Açığı, "azad yazarlar"ın Overton pəncərəsində oturub sağa-sola küfr yağdırmalarına adi eşiyə baxmaq kimi baxmıram.***

**İbrahimxəlil**

# Elşad Həsənov: *Mənim arzum məktəbimizin 12-illik ümumi məktəb statusu almasıdır*

**Oxucularımıza Qardabani rayonunun Kəpənəkçi natamam orta məktəbinin direktoru Elşad Nadir oğlu Həsənovun tərcümeyi-halını təqdim edirik:**

*Elşad Nadir oğlu Həsənov 1949-cu il aprel ayının 3-də Qardabani rayonunda fəhlə ailəsində anadan olub. Elşad Həsənov 1966-cı ildə orta məktəbi bitirdikdən sonra,elə həmin ildə də Azərbaycana gedərək Azərbaycan DövlətNeft-Kimyaİnstitutuna qəbul olur. Elşad Həsənov 1972-ci ildə ali təhsil aldıqdan sonra Gürcüstana qayıdaraq Kəpənəkçi natamam orta məktəbində müəllim kimi ilk əmək fəaliyyətinə başlayır.O, 1984-cü ildə dərs hissə müdiri vəzifəsinə təyin edilir. 1993-cü ildən bu günə qədər isə Kəpənəkçi natamam orta məktəbin direktoru vəzifəsində çalışır.*

*Ailəlidir. Üç övladı var.*



**– Elşad müəllim, rəhbərlik etdiyiniz tədris ocağı barəsində oxucularımıza məlumat verməyinizi xahiş edirik.**

– Mənim rəhbərlik etdiyim Aşağı Kəpənəkçi natamam orta məktəbində 50 nəfərə yaxın şagird kontingenti var ki, onlarında təlim-tərbiyəsi ilə 15 nəfər ali təhsilli müəllim məşğul olur. Bizim məktəbimiz 2002-ci ildə yenidən inşa edilib. Tədris ocağımızın kompyuter otağı, kitabxanası, akt zalı və eləcə də 9 sinif otağı var. Onu da bildirmək istəyirəm ki, məktəbimizdə elmin sirlərinə yiyələnmək üçün şərait kifayət qədər yaxşıdır.

**– Elşad Həsənov, işlədiyiniz ziya ocağında bu günə qədər hansı yeniliklər həyata keçirilib?**

Mən həmişə çalışmışam ki, şagirdlərimiz daha yaxşı və keyfiyyətli təhsil alsınlar, elmə, biliyə daha dərindən yiyələnsinlər. Artıq bir neçə ildir ki, şagirdlərimiz müxtəlif fənlər üzrə keçirilən rayon və respublika olimpiadalara fəal qatılaraq yaxşı nəticələr əldə edirlər. Bu, bizim həm vəzifəmizdir, həm də gördüyümüz işlərə nümunədir. Bu il məktəbimzin dam örtüyü əsaslı təmir edildi, pəncərələri dəyişdirildi. Get-gedə şagirdlərimizin sayında da artım müşahidə edilməkdədir. Qeyd edim ki, ötən illərdə şagirdlərin sayı 40 nəfər olsa da, artıq bu il 50 nəfərədək şagird məktəbimizdə təhsil alır. Onu da bildirim ki, bizim pedaqoji kollektivimzin qarşısında duran ən prioritet məsələ ölkəmizə layiqli və savadlı vətəndaş yetişdirməkdir.

**– Elşad Nadiroğlu, məktəbinizi gələcəkdə necə görmək istəyirsiniz?**

– Mən, artıq yarım əsrdən çıxdur ki, bu məktəbdə çalışıram və bununla da fəxr edirəm. Bildiyiniz kimi, bizim məktəb natamam orta məktəbdir. Biz şagirdlərimizə 9 il təhsil verdikdən sonra, onlar digər məktəblərə üz tuturlar. Əsası bizim məktəbdə qoyulan savadlı şagirdlərimiz12-illik təhsil üçün başqa məktəblərə gedərək 3 il orada təhsil alır və həmin məktəbin yetirməsi kimi tanınır. Ona görə də həmişə istəmişəm ki, bu məktəb orta məktəb statusu alsın. Bunun üçün də bir çox problemlər vardır ki, hal-hazırda onların üzərində çalışıram. Öz zəhmətimizin bəhrəsini öz məktəbimzin adı ilə eşitmək və görmək hər birimizin istəyidir. Elə mənim ən böyük arzum da məktəbimizi12-illik məktəb kimi görməkdir.

**Nadir Almazoğlu**

# Qardabanidə yaşayan Yusubovlar ailəsinin evindən X-XI əsrlərə aid olan küp tapılıb

Qardabani rayonunun Qələbə küçəsində yaşayan Yusubovlar ailəsinin evindən qədim tarixə malik küp tapılıb. Uzun illərdir ki, evlərinin arxasından keçən içməli su xəttinin nasaz olmasından əziyyət çəkən ailə dəfələrlə aidiyyatı orqanlara baş vermiş problemlə əlaqədar müraciət etsələr də, səslərinə səs verən olmayıb. Vəziyyəti belə görən Yusubovlar ailəsi məcbur olaraq problemi özləri həll etmək fikrinə düşürlər. Evin içərisinə axan suyun qarşısını kəsmək üçün evdə qazıntı işləri apararaq betonla bərkitmə işləri görməyə başlayırlar. Qazıntı aparan ev sahibi Yusubov Səyyad 1 metr dərinliyində qazıntı işini gördüyü zaman kiçik ölçülü küp qırıqlarına, yanmış kömür qalıqlarına və heyvan sümüklərinə rast gəlir. Bir qədər də qazma işini davam etdirən ev sahibi birdən-birə böyük bir küp tapır. Tapılan küpün hündürlüyü 1 m 20 sm, diametri isə 90 sm olur. Küpün üzərindəki naxışlar və forması küpün şərab üçün yox, onun ərzaq məhsullarının saxlanması üçün istifadə olunduğunu təsdiq edir. Tarixçi Əvəzxan İsayev küpə baxış keçirdikdən sonra belə bir qənaətə gələrək bildirdi ki, bu küp təxminən X-XI əsrlərdə istifadə olunan tarixi əşyadır. Tapıntı ilə Qardabani rayon Muzeyinin əməkdaşları da maraqlanıblar. Onlar da küpün təxminən X-XI əsrlərə aid olduğunu təsdiqləyirlər. Muzey əməkdaşları tarixi əşyanı 300 lariyə ev sahibindən satın almaq istəsələr də, küpü otaqdan çıxartmaq mümkün olmayıb. Ona görə ki, küpün otaqdan çıxardılması üçün otağın ya pəncərəsi, yada ki, qapısı mütləq uçurulmalıdır.Vəziyyəti belə görən Yusubovlar ailəsi qərara gəliblər ki, küpü heç kəsə verməsinlər və əşyanı tarixi nümunə kimi öz evlərində qoyub saxlasınlar.



**Almaz Nadiroğlu**

# Kinqboks üzrə dünya çempionatına real namizəd – Raul Məmmədov

Dədə-babalarımız toylarda qurşaq tutmaqla, ad çıxarmışdılarsa, onların nəvələri müasir idman növlərində özlərini sınayırlar və böyük-böyük nailiyyətlərə imza atırlar. Gürcüstanda, eləcə də bir çox arenalarda öz idman bacarıqlarını göstərən, tamaşaçı, azarkeş rəğbəti qazanan, ailəsini, el-obasını sevindirən belə balalarımızdan biri haqqında söhbət açacam. Bu, Məmmədov Raul Rövşən oğludur.

Raul 1977-ci il avqust ayının 15-də Marneuli şəhərində, ziyalı ailəsində dünyaya göz açmışdır. Hələ uşaq vaxtlarından idmana böyük həvəs göstərmiş, 4 yaşı olanda qoca babası, ömrünü idmana həsr etmiş. Əhməd müəllim onu zəngin nəzəri, praktiki təcrübəyə malik, idman aləmində yaxşı tanınan Azər müəllimin rəhbərlik etdiyi kinqboks bölməsinə yazdırır. Bu günə kimi Azər müəllimlə məşğul olan Raulun uğurları haqqında yazmaq yerinə düşərdi.



13 may 2012-ci il, Quba şəhəri, ümumilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş karatenin şaulin növü üzrə keçirilən beynəlxalq çempionat Raulun ilk mötəbər görüşü idi. Rinqə dəvət alan Raulun rəqibi Qazaxıstan idmançısı Kunanbayev ilk zərbədən rinqin kanatından kənara tamaşaçıların üstünə yıxılır. İlk dəqiqə, nokaut.

İkinci döyüş. Azərbaycan, dünya çempionatının 2-cisi, məşqçi Azər müəllim bunu Rauldan gizlədir. 2-ci raunddan ilk dəqiqədə Raulun zərbəsi dünya 2-cisini də döşəməyə sərir, nokaut. 3-cü görüş, final. 1-ci raunddan Raul Özbəkistan idmançısına göz açmağa imkan vermir, 1-ci raundun sonuna yaxın, Raul Özbəkistan döyüşçüsünü də döşəməni qucaqlamağa məcbur edir, nokaut. 3 görüş, 3 nokaut. İlk beynəlxalq yarışdan uğurla dönən Raul, arxayınlaşmadı. Bakıdan qayıdan kimi qoca babası Əhməd İsmayılovun xüsusi nəzarəti altında dəmir yol tirlərinin üzərində əzmlə öz fiziki hazırlığını, cəldlik-çevikliyini artırmaq üzərində yorulmadan işlədi.

İkinci beynəlxalq çempionat, Bakı şəhəri. Sayokanın qaydasız versiyasında (28.10.12) Raul 3 döyüş keçirmiş hər üçünü də nokautla başa vurmuşdur. 2-ci beynəlxalq turnirdəki mükəmməl qələbə Raulun gərgin əməyinin nəticəsidir. 3-cü çempionat Raul artıq Bakı idmançısı kimi İsmayıllıda respublika çempionatında iştirak edirdi. O, Bakı şəhərinə transfer olunmuşdu. 25-27.05. 20.15. Bu Respublika çempionatı Lisenziya xarakteri daşıyırdı. Qızıl Əlcək Kinqboks idman klubu tərəfindən yarışda iştirak edən qartal baxışlı oğlan 2 dəfə dünya, Avropa və dəfələrlə Azərbaycan çempionu Rəhim müəllimin rəhbərliyi altında yarışa qatılmışdı. Rəhim müəllim yarışqabağı müşavirədə rəhbərliyin qarşısında hesabat xarakterli çıxışında yeni transfer Raul haqqında yüksək fikirdə olduğunu bildirdi. Məşqçinin fikrində yanılmadığını Raulun uğurlu çıxışı sübuta yetirdi. 1-ci döyüş, "Neftçi" cəmiyyətinin yetirməsi, ilk dəqiqədə nokaut.

Final. WAKO – dünya çempionu. Zöhrab Əzimov 5 dəfə peşəkar rinqdə döyüş keçirib 4 qələbəsi olub, 1 məğlubiyyəti, 3 dəfə Avropa, dəfələrlə Azərbaycan çempionudur. 25.27.05. 20.15. Raul – Zöhrab Əzimov. Yarışda Raulun öz məşqçisi Azər müəllim də iştirak edirdi. Birinci raundda Raul bu növ üzrə mütəxəssisləri, məşqçiləri, yarış iştirakçılarını heyran qoyur. İkinci raundda təcrübə özünü göstərir. Böyük rinq ustası Zöhrab qadağan olunmuş nöqtəyə zərbə endirir. 2-ci zərbəni o yerə yaxın nöqtəyə endirir. Bütün bunlara baxmayaraq dözülməz ağrılara sinə gərən Raul qonq vurulan kimi əllərini yuxarı qaldırır, qaçaraq Azər müəllimi qucaqlayır. Hakimlər kolleqyası çox çəkən məşvərətdən sonra Zöhrabın əlini qaldırır. Ancaq mən yarışda iştirak edən bir valideyn kimi, Zöhraba "sağ ol" deyirəm. Ona görə ki, o hakimin qərarından sonra Raulu qucaqlayıb-öpüb onun əlini yuxarı qaldırıb və deyib ki, "səni tanımıram, qaqaş, sən döyüşü uddun, mənim çoxsaylı titullarıma görə qələbəni mənə verdilər" (məşqçi Azər müəllimin dediklərindən).

Bax, bu yarışdan sonra Raul İspaniyada keçiriləcək dünya çempionatına real namizəd kimi Qızıl Əlcək idman klubundan İspaniyada təmsil olunacaq. İspaniyaya qədər isə oktyabr ayında Türkiyədə keçiriləcək dünya çempionatında iştirak edəcək. (Təəssüf ki, bu yarış təxirə salınıb red.) Almaniyanın Münhen şəhərindən aldığımız təbrikin mətnin oxuculara yazıram.

"Raul, biz Münhen şəhərində yaşayan azərbaycanlılar sənin Bakı şəhərinə Qızıl Əlcək kinqboks federasiyasına transfer olmağın ürəkdən alqışlayırıq, sənə uğurlar arzulayırıq. Hər vaxt sənin döyüşlərini saytlarda izləyirik". Münhen, bir qrup azərbaycanlı. 14.06.2015.

Raul, biz səndən ancaq çempionluq titulunla şəhərimizə dönməyini istəyirik. Biz buna inanırıq.

**Mahizər İsmayılova,**
***Marneuli 6 nömrəli gürcü məktəbinin müəllimi.***

# Almaz "Qızıl" yerə layiq görülüb

***Nəzərli ümumi məktəbinin şagirdi ingilis dilindən keçirilən beynəlxalq olimpiadada "Qızıl" yerə layiq görüldü.***



Gürcüstanda fəaliyyət göstərən azərbaycandilli məktəblər sırasında Qardabani rayonunun Nəzərli kəndindəki ümumi məktəbin adı tez-tez çəkilir. Belə ki, bu ziya ocağı həm keçmişdə, həmdə son illərdə kifayət qədər gənclər yetişdirmişdir. Onlar bu gün həm ölkəmizin daxilində, həm də onun hüdudlarından kənarlarda yüksək vəzifələrdə çalışırlar. Onu da qeyd edək ki, Nəzərli məktəbinin bir çox yetirmələri alim, professor, akademik kimi titullara sahib olublar. Bu gündə bu tədris ocağı bu yolu davam etdirməkdədir. Nəzərli məktəbində hal-hazırda 500 nəfərə qədər şagird kontingenti var ki, onların da təlim-tərbiyəsi ilə 45 nəfərdən ibarət ixtisaslı və təcrübəli müəllim heyəti məşğul olur. Qeyd edək ki, bu gün məktəbin 8-ci sinif şagirdi Məmmədov Almaz Nadir oğlu Gürcüstanda "Robinsontest" təşkilatının keçirdiyi "Məktəb şagirdlərinin beynəlxalq səviyyədə ingilis dilini mənimsəməsi" adlı layihədə iştirak edərək, ingilis dilini beynəlxalq qiymətləndirmə dərəcəsinə görə "Qızıl" yerə layiq görülmüşdür. Təşkilat tərəfindən göndərilən sertifikat isə Almaz Nadiroğlunun təhsil aldığı məktəbdə böyük sevinc hissi ilə qarşılanıb. Məktəbdə sertifikatın təqdimat tədbiri keçirilib. Tədbirdə məktəbin direktoru Elxan Abdullayev, pedaqoji kollektiv və şagirdlər iştirak ediblər. Nəzərli ümumi məktəbinin direktoru Elxan Abdullayev beynəlxalq dərəcəli sertifikatı Almaz Məmmədova təqdim edib, məktəbin əlaçı şagirdi Almaz digər şagirdlərə nümunə göstərilib. Məktəb şagirdlərinə tövsiyə olunub ki, hər bir şagirdin vəzifəsidir ki, Almaz kimik yüksək qiymətlərlə oxusun, məktəbin, eləcə də kəndin adını şöhrətləndirsin.

Onu da bildirək ki, Almaz Nadir oğlu Məmmədov ingilis dili, gürcü dili, riyaziyyat fənlərindən "Kings", "LSE", "Robinsontest" təşkilatlarının keçirdikləri bir çox olimpiadalarda iştirak edərək 1-ci və 2-ci dərəcəli sertifikatlara layiq görülmüşdür.

**Aytən Nəbiqızı**

# Babam haqda xatirələrim



Babam Təmir Əmir oğlu haqda xatirələrim çoxdur. Bilmirəm necə başlayım, necə sona çatdırım. Bu, yazmaqla bitən deyil.

Demək olar ki, mən uşaqlıqdan babamın tərbiyəsini götürmüşəm. Valideynlərimin üzərimdə böyük zəhməti olsa da, yaddaşımda babamın xüsusi yeri var. Bəzən istədiyim nələrdənsə babamın məsləhəti ilə imtina etmişəm, artıq müzakirələr etməmişəm. Bu demək deyil ki, qorxmuşam. Sadəcə mən babamın fikirlərini həmişə örnək kimi qəbul etmişəm. Babam heç vaxt uca səslə danışmazdı. Onun bir baxışı kifayət edirdi ki, insan özünü tarazlasın.

Onunla bağlı xatirələrim o qədərdir ki...O, həmişə mənim ad günlərimdə iştirak edərdi. Məclisi şənləndirərdi və mənə həmişə maraqlı hədiyyələr alardı. Özü kiçik olsa da, mənim üçün mənəvi dəyəri dünyalar qədər olan hədiyyələr...

Bir dəfə də yeni il ərəfəsində babam məni çağırıb dedi: "Balası, sənə şam ağacı almışam". Mənə söz vermişdi deyə hədiyyə gözlənilən idi. Ancaq hədiyyəni verəndə baxdım ki, şam ağacı deyil. Gözəl güldan və içində üç ədəd qızılgül! Sual verdim – Baba, axı bu şam ağacı deyil?! Sakitcə gülümsünərək dedi: Bu ondan da gözəl deyilmi?!

Babam mənə hər sahədə qayğı və diqqət göstərirdi. Xüsusən də təhsilim onu çox maraqlandırırdı. Məktəb ləvazimatlarımı həmişə alardı. Müəllimlərimlə daim görüşüb, söhbət edirdi.

Bir dəfə məktəbdə gürcü dilindən hazırlıq imtahanı keçiriləcəkdi və sonda beş nəfər ən yaxşı bal toplayan şagird seçiləcəkdi. Mən bu imtahan üçün çox çalışmışdım. Atam həmin vaxt uzaqda idi. Sinif yoldaşlarımın valideynləri məktəbə toplaşıb nəticələri gözləyirdilər. Çox qorxurdum, imtahana girdim və çıxanda babamı valideynlər arasında gördüm. O qədər sevinmişdim... Amma qorxurdum ki, az bal toplayaram və babamın ümidini doğrultmaram. Bu zaman o, məni yanına çağırıb dedi: Afərin sənə! İmtahanı keçmisən və beş fəal şagirddən biri seçilibsən. Kiçik imtahan olsa da, mənim sevincimin həddi yox idi. Digər iştirak edən şagirdlərin hamısı yaşda məndən olduqca böyük idilər. Məni ilk dəfə riyaziyyat hazırlıqlarına da babam aparıb. Bütün bayramlarda o, məni təbrik edərdi.

Babam dünyasını dəyişməzdən bir həftə əvvəl onun yanına məsləhət üçün getmişdim... Dedim baba, yeni ingilis dili hazırlıqları olacaq, nə məsləhət verirsən, gedim? Mənə sual verdi ki, sən kim olmaq istəyirsən? Onun fikrini sordum. Sənə jurnalistlik yaraşır, dedi. Bacarığın, yazmaq qabiliyyətin var. Əgər jurnalist olmaq istəsən ingilis dilini mütləq öyrənməlisən. Babamla məslhətləşib evə qayıtdım. Ancaq hardan bilərdim ki, bu onunla son görüşümdür. Ölüm onu məndən alacaqdı. Aradan bir neçə gün keçdikdən sonra biz babamı itirdik. Bu mənim üçün indiyə kimi yaşadığım ən böyük itki və zərbə idi. Uzun zaman onsuzluğa uyğunlaşa bilmirdim. Onsuz deyib-gülməyin mənasız olduğunu hiss edirdim. Elə hesab edirdim ki, müvəqqəti olaraq harasa getmişdi. Ancaq zamanla qəbul etməliydim ki, o, artıq heç vaxt dönməyəcək.



Babamla ən çox vaxt keçirən nəvəsi mən idim.

O, mənə söz vermişdi ki, bütün nəvələrimin ali təhsil aldığını görmüşəm, bircə sən qalıbsan. Həvəslə gözləyirdi ki, mən nə zaman ali təhsil alacam. Amma ölüm buna imkan vermədi və bu məni çox incidir. Həmişə deyərdi – "Gör nəvəsi Tbilisidə təhsil alanda babası ona nələr göndərəcək". Ancaq verdiyi sözü tuta bilmədi. Onun yoxluğu hər gün məni üzür. Ali təhsil müəssisəsinə daxil olduğum gün onun yoxluğunu daha çox hiss edəcəm.

Babam haqda xatirələrim sonsuzdur. O, mənim yaddaşımda silinməz səhifə kimi daim qalacaq...Yaxşı insanların itkisi acı olur!

**Səltənət Vəliyeva**
***Marneuli rayonunun Qasımlı ümumi məktəbinin XII sinif şagirdi***

# Şair Səadət Buta haqqında bir neçə söz

*(Əvvəli ötən sayımızda)*

Dərdə elə şələlənib ki Səadət Buta, sanki dərdin özü kök atıb onun kürəyində. Elə bil dərd bulağı damarlarına qan yerinə dərd axıdır. Paralanmış vətənin hər guşəsi sanki onun bədəninin, canının bir parçasıdı. Dağlardan yazanda dağa dönür, bəzən də dağdan olur onun sinəsi. Dağlar qoynunda dünyaya göz açan, havasıyla, suyuyla, çörəyiylə göylərə pərvaz eləyən bir şair, özü də Səadət Buta kimi bir şair, halaldan halal ilhamını o dağlardan almadımı?

*Gəl ay könül dostum, dağlara gedək,*
*İnan unutdurar dərdini dağlar.*
*Namərdi yollarda qovlayar, yorar.*
*Yaşadar qoynunda mərdləri dağlar.*

Biz gəraylısında dağların bütün ləl-cəvahir gözəlliklərini sadalamaqla yanaşı, həm də onların heç bir tarixçəsinin bilməsi mümkün olmayan tarixini Allahdan başqa kimsənin bilə bilməməsinə işarə verir.

*Buta göylərtək ucadı,*
*Cavabsız bir tapmacadı.*
*Sor, bilən varmı neçədi*
*Yaşı dağların – dağların.*

Dağlara elə vurulub ki, şair hər dərdinin dəvasını da ordan başqa yerdə axtarmır.

*Yenə həsrətinnən yandım a dağlar,*
*Quzeydən bir ovuc mənə qar gətir.*
*Quzuqulaq şorbası, yarpız dovğası,*
*Cincilim kətəsi, qulançar gətir.*

Süd yanığı deyil Səadət Buta. Atalı-analı böyüyüb. Bacılı-qardaşlı böyüyüb. Sevgi yanığıdı bu şair xanım. Vətən sevgisi, el-oba, yurd sevgisi. Birdə halaldan halal, özünün yar sevgisi. Bu vəfasız dünyada onu yarı yolda qoyub gedən nakam Abbas sevgisi. Onsuz balalarını böyüdüb. Qızlarını köçürüb, oğullarını evləndirib. Amma hara gedib, onu görüb və onun yoxluğuna dözə bilməyib və elə bil yaşın üstə yaş gəldikcə ona doğru daha çox can atır.

*Səhrada kimsəsiz, düzdə yalqızam,*
*Yarın güzarına yetirin məni.*
*Ömrün qışı gəlib, donan sal buzam,*
*Sevda baharina yetirin məni.*

*Yadlaşıb yad oldum yadlar içində,*
*Yanıram alovlar, odlar içində.*
*İtib çiçəklərim otlar içində,*
*Eşqin gülzarına yetirin məni.*

*Ay Buta dərdlərə döz dedim, yandım,*
*Anlamaz kəslərə söz dedim yandım.*
*Hər nə söylədimsə düz dedim yandım.*
*Haqqın bazarına yetirin məni.*

Amma mən Səadət Butanın saz dəlisi, saz məcnunu olduğunu da çox gözəl bilirəm. Bir mənmi? Yox! Onu tanıyan, bilən, sevən onun dünyasınnan az – çox halı olan hər kəs. Bu, doğrudan da, belədi. Bəlkə də saz sevgisi ona söz qoşmaq sevgisinnən öncə gəlib. Daha doğrusu, onu şair eləyən o ulu dağlarla bərabər həm də o ulu saz olub.

Aşıq Əmrahın, Hüseyn Saraclının, Azaflı Mikayılın, aşıq Kamandarın neçə-neçə adını çəkmədiyim ustadın məclislərində tüğyan eləyib Səadət Butanın sinəsindəki söz. Gülabının saz aləminə bağlılıq da elə-belə deyil. Xalq şairi Hüseyn Arifin məsləhətlərini dinləmiş, xalq şairi Zəlimxan Yaqubun saz və söz süfrəsinin yanında olub. Onların hər ikisiylə sazlı – sözlü tədbirlər keçirib. Bütün bunlar hələ, hələ daha nələr şair Səadət Butanı sinədəftər eləyib. "Aşıq Pəri" məclisinin bütün aşıq xanımlarıyla bağlılığı onların sazında Səadət Butanın sözləri könülləri fəth eləyib. Sazla bağlı, aşıqlarla bağlı yazdığı şeirlərdə ellərdən – ellərə dolaşıb, gəzib həmişə. Elə indi də daha uzaqlara – Türkiyəyə, İrana qədər qanad açır. Səadət Butanın sözü üstə şeirləri XX əsrin ən böyük ustad aşıqlarından olan ilk 11 telli sazın memarı Dədə Əmrəha yazdığı bir şeir onun saza, aşığa, ustada necə bağlılığından, vurğunluğundan xəbər verir.



*Saçımı tel eylə, sazına bağla,*
*Çal mənim könlümü çal, Əmrah dədə!*
*Kəsibdi qarşımı möhnət hasarı,*
*Məni dərd əlinnən al, Əmrah dədə!*

Belə odlu-alovlu misralar tək Səadət Buta könlündən süzülüb gələ bilər.

*Saz sənin sehrindi, mehrindi bəlkə,*
*Məcnun xəyallısan, Leylindi bəlkə,*

kimi şahanə misraları dağ olsa belə, yerindən oynadar.

Mən Səadət Buta yaradıcılığını təhlil etmək gücündə deyiləm. Əslində onun poeziysı elə bir ümmandı ki, ona baş vuranların xoş halına, mən də onlardan biri kimi - heyran olanlardanam. Təkcə onun "Ay Dədə Camal" şeiri bütöv bir poeziya çələngidi. Həmin şeir bir dastana dönüb dillərdə dolaşır. "Eldə Elat bayramı" poeması biganələrin yenidən yurd sevgisini yenidən diriləldən bir ilac kimidi. Bəlkə də onu az adam oxuyub, çünki bir ildi çap olunub. Amma hamı kimi mən də ürəkdən inanıram ki, bu əgər çox-çox insanların məhv olmuş duyğularının dirilməsi üçün üzü haqqa oxunan ən qiymətli dua kimidi, bayramlar naxışıdı.

Bu yaxınlarda internetdə Səadət Butanın uzun illər öncəsi Tiflis radiosunun Azərbaycan dilindəki redaksiyasında lentə alınmış səsini dinlədim. Dinlədim bu lent yazısını – Səadət xanım şeirlərini oxuyurdu. İlahi, necə təmkinlə, gözəl səslə! Mən onu dinlədim zövq aldım. 35 il öncəki səs... Sonra özünə dinlətdim, çox kövrəldi. Və bu səsi vaxtilə lentə almış, bu çıxışı bu günkü gün bütün dünyaya yayan çox dəyərli jurnalist, şair, araşdırmaçı Mirzə Məmmədoğluna təşəkkür edirəm. İndi əlinə fürsət keçənin çoxu özünü təbliğ eləməklə məşğul olduğu halda, Mirzə müəllim çox dəyərli vaxtını Səadət xanımın təbliğinə ayırıb. Ürəyi və qələmi var olsun.

Bəlkə də mən şair Səadət Butadan yazmaq haqda heç düşünmədim də. Sadəcə onun şeirlərinin canıma, ruhuma dolan işığını insanlarla paylaşmaq istədim. Onsuz da onu tanıyan tanıyır və onu tanıyan hər kəsə bu sevgidə "mən də varam" demək istədim. Ondan çox yazıblar, çox yazacaqlar.Alim də yazıb, şair də yazıb, tədqiqatçı da. Mən onu sevən, şeirlərindən qidalanan, onun özünə vurğun olan bir insan kimi, ürəyimi boşaltmaq istədim. Amma hələ onun nə şeirlərindən, nə sözündən – söhbətindən və nə də özündən doymamışam, doymaram da! Şeirlərinin birində yazır ki:

*...İstəmirəm taxtını,*
*Ver quruca baxtımı,*
*Heç insafın yoxdumu?*
*Dünya, nolur, sev məni!*

Və mən də üzümü o gözəl şairimizə tutub deyirəm:

**Dünya səni**
**çox sevir**

*Canımın canı Butam,*
*Yurdumun şanı Butam.*
*İnsafın hanı Butam?!*
*Dünya səni çox sevir.*

*Dağlarımın lalasısan,*
*Borçalımın balasısan,*
*Şeir, sənət qalasısan,*
*Dünya səni çox sevir.*

*Bürüsə də duman səni,*
*Dağlasa da zaman səni,*
*İncitsə də yalan səni,*
*Dünya səni çox sevir.*

*Qəlbim elə bahar, yazdı,*
*Hər kəlmən də bir murazdı,*
*Coşan sinən telli sazdı,*
*Dünya səni çox sevir.*

*Hər nadannan yaralanma,*
*Bu sevdadan aralanma,*
*Sən dünyadan qaralanma*
*Dünya səni çox sevir.*

**Ay Buta**

*Nə yaxşı qədəmin bizlərə döndü.*
*Dağlardan düzlərə endin, ay Buta.*
*Sandım ki, bir mələk göylərdən endi,*
*Ruhun mələklərlə təndi, ay Buta.*

*Yaman kövrəldib qəm-kədər məni,*
*Xəyallar etmişdi bir təhər məni.*
*Sən gəldin, eylədin təzə - tər məni,*
*Yaylağın balına döndün, ay Buta.*

*Gəlişinlə xəstələrim sağaldı,*
*Duman – çiskin göylərimdən dağıldı.*
*Eldarqızı, bu nə gerçək nağıldı,*
*Bu gələn əzizim səndin, ay Buta!*
*Bu gələn əzizim səndin, ay Buta!*

**Güllü Eldar (Tomarova)**
***Rustavi – Başkeçid***

# Dünyada ilkə imza atan qadınlar




***Hər kəs ilk olmaq istəyir. Nə olursa, olsun. Bəs müxtəlif ilklərə imza ataraq tarixə adını yazdıran qadınlar kimlər olub?***

**İlk qadın kosmonavt**

Valentina Nikolayevna Tereşkova adlı rus qadın 16 iyun 1963-cü ildə "Vostok VI" adlanan kosmik gəmi ilə 71 saatlıq uçuş həyata keçirib. Uçuş zamanı o, dünya ətradında 48 dəfə dövrə vurub.

**İlk qadın səfir**

Aleksandra Kollantai adlı rus qadın. Ziyalı ailədə doğulan bu qadın fəaliyyəti dövründə bir neçə ölkəyə səfir göndərilib.

**İlk qadın hüquq müdafiəçisi**

Amerikalı Arabella Mansfiled qadınlar sırasında adını ilk hüquq müdafiəçisi olaraq yazdırıb. O, ilk məhkəmədə çıxışını 1869-cu ildə edib.

**İlk qadın həkim**

Onda həkim olmaq istəyini dostunun xərçəng xəstəliyindən ölməsi yaradıb. Elizabet Blakvell 23 yanvar 1849-cu ildə məzun olub.

**Siqaret çəkən ilk qadın**

Cəmiyyət içində siqaret çəkən ilk qadın Qlerman Tonner olub. Rəvayətə görə, 1858-ci ildə siqaret yandıran qadın ətrafdan onu görənlərin böyük təəccübünə səbəb olub.

**İlk qadın sürücü**

Fransız maşın istehsalı zavodunun mühəndisi Emili Levissorun həyat yoldaşı dünya tarixinə adını ilk maşın sürən qadın kimi yazdıra bilib. Buna səbəb isə onun ərinin maşın zavodunda çalışması göstərilir.

**İlk roman yazarı**

Afra Ben – ilk yazılarını 1687-ci ildə yazan qadının romanları ölümündən 8 il sonra yayılıb.

**Səhnəyə çıxan ilk müsəlman qadın**

O vaxtlar qadınların səhnəyə çıxması cəmiyyət tərəfindən qəbul olunmadığından Afifə Jalə bu adı özünə ləqəb seçib. Sonradan o, bu adla tanındığı üçün fəaliyyətinə elə bu imza ilə də davam edib.

**Tarixdə ilk şair qadın**

Sargon Akkadlının (Akkad padşahlığını yaradan hökmdar) qızı.

**Şərqdə ilk opera yazan bəstəkar qadın**

O, azərbaycanlı Şəfiqə Axundovadır.

***Qeyd edək ki, siyahıda adları yazılan qadınlar tarixə öz ilkləri ilə düşənlərin sadəcə bir hissəsidir.***



*Bəxtiyar Mövləli*

## Yazıbdı

Görən deyir nə tez qocaldın sən,
Təbiət qisməti belə yazıbdı.
Ömrümü sürmədim havayı, sərsəm,
Verilən həyatı elə yazıbdı.

Mən dağların qoynunda doğulmuşam,
Bağçada açılan çiçək olmuşam,
Ailənin əzizi, sözü olmuşam,
Qisməti yaradan gülə yazıbdı.

Duymuşam insanı, incəsənəti,
Sevirəm dilimi, incə sənəti,
Bəxtiyaram, ağardıb saç-sifəti,
Ən şirin sözləri dilə yazıbdı.

## Bilmirəm

Həsrət qaldım mən Nihadın üzünə,
Zeynəb, Firuzəmin şirin sözünə,
Kül olsun ay fələk, sənin gözünə,
Yamanı yaxşıdan seçə bilmirəm.

Arzular böyükdür, ömür çox gödək,
Nisgili, hicranı gərək yox edək,
Əl-ələ tutaraq duraq yol gedək,
Dostun xatirindən keçə bilmirəm.

Arılar çiçəkdən bal çəkə bilir,
Niyə özümüzü sevə bilmirik,
Qədər yanımızdan yan keçə bilir,
Cəfakeş qədrini bilə bilmirik.

Bəxtiyaram, çox iş gəlib başıma,
Vəfalıyam dostuma, yoldaşıma,
Bağlıyam yurduma, yurddaşıma,
Bu yurdu boş qoyub köçə bilmirəm.



*Hacı Çobanov*

## Ay qızım

Elə bilmə birdən-birə böyüdün,
Zəhmətini çox çəkmişik, ay qızım.
İstəmədik böyüyəsən bacısız,
Tanrı sənə bacı verdi tay, qızım.

Çağıranda bir haray ver, hayıma,
Namuslu ol, qeyrətli ol, ay qızım,
Xoşbəxt yaşa, yaxşılardan yaxşı ol,
Heç olmasın kimsə sənə tay, qızım.

Elə bil ki, qar yağıbdı başıma,
Ağ düşübdü qara olan qaşıma,
Bilməm neçə yaş verərsən yaşıma,
Yavaş-yavaş qocalıram, ay qızım.

Artıq yaşım altmışa çatıbdı,
Bir ay olmaz nənən bizi atıbdı,
Biləmmirəm, bəxtim niyə yatıbdı,
İşlərim heç düz gətirmir, ay qızım.

Pis söz desə biri mənim yanımda,
Qeyriləri məndən haşa çəkirlər,
Kimi baxır qeyrətimə, adıma,
Hara getsəm, məni başa çəkirlər.

Kimi əl eyləyib başa çağırır,
Kimi zəng eyləyib yaşa çağırır,
Anan ilə məni qoşa çağırır,
O, uyquda, gedəmmirəm, ay qızım.

Deyəmmirəm hələ sözün çoxunu,
Yayı atıb gizlədirəm oxunu,
Dünən gecə o gördüyüm yuxunu,
Deyəmmirəm, deyəmmirəm, ay qızım.

## Sən nə danışdın?

Necə dilin gəldi, vicdanı atdın,
Olmayanı olan bilib danışdın.
Əl dəyməmiş, dərilməmiş bir gülü,
Xarab olmuş, solan bilib danışdın.

Necə oldu hücum etdin üstümə,
Necə oldu lap dayandın qəsdimə?
Heç yanmamış ocağıma, tüstümə,
Necə gəldi sari-səman danışdın.

Tikə bilmədiyin halda kiçik bir öyü,
Uçurtdun başıma yeddi qat göyü,
Yalandan başlayıb söyüncü, söyü,
Bu dünyanı yalan bilib danışdın.

Səni çiçək bilib gülə qatırdım,
Yollarında ayaq üstə yatırdım,
Xəyalımda vüsalına çatırdım,
Çatmayanı çatan bilib danışdın.

Sən Hacını necə gördün, nə saydın?
Nə düşündün öz-özünə, nə saydın?
Son sözünü necə dedin, nə saydın?
Dəli olub lap divanə danışdın.



*Mayqa Mətin*

## Yalvardım

İllərə, günlərə, aya yalvardım,
Dənizə üz tutdum, çaya yalvardım,
Günəşə, ulduza, aya yalvardım,
Dedim dar ayaqda gəlin karıma...

Dənizə dedim ki, coşmağı öyrət,
Çaylara dedim ki, daşmağı öyrət,
Sözü-sözə düzüb qoşmağı öyrət,
Tükənməz həvəs ver sənətkarına...

Dağlara dedim ki, qartalın olum,
Zirvəndə görünən ağ qarın olum,
Qüzeyində başı açıq, ayaqları yalın olum,
Bəlkə adım kitablara salına...

Misralardan don geyindim, heca oldum,
Şair oldum, gündüz oldum, gecə oldum?!..
Söz mülkündə iməklədim-iməklədim, necə oldum?!..
Kimin cürəti çatır çəpər çəksin yoluma!..

Günəş əsirgəmədi heç vaxt məndən nurunu,
Ulduzlar da pozmadı şairlik qürurumu,
Duydular, anladılar Mayqada bu durumu,
Baxıb bələd oldular pətəyimə, balıma...

## Səni gəzirəm, ana!

Arxamın dağı anam,
Könlümün yağı anam,
Gözümün sağı anam,
Hardasan?!

Düşmüşəm qaynar oda,
Yetişənim yox dada,
Sən atlı, mən piyada,
Hardasan?!

Bəxt gülmədi üzümə,
Qar yağdırdın düzümə,
İnanmıram gözümə,
Hardasan?!

Sən döyünən ürəyim,
Hər bir zaman gərəyim,
Mənim yorğun mələyim,
Hardasan?!

Günəşə kəmənd atdım,
Ulduza əl uzatdım,
Yoruldum yolda yatdım,
Hardasan?!

Ürəyimi oyubsan,
Məndən nə tez doyubsan,
"Toyum təxirə düşüb, yarı yolda qoyubsan",
Hardasan?!

Zemfira var-gəl edir,
Hərdən mənə əl edir,
Canımdan canlar gedir,
Hardasan?!

Yaş çata yüzün üstə,
Sürünəm üzüm üstə,
Can verəm dizin üstə,
Hardasan?!

Öz qızını atma gəl,
Dərdimi qaynatma gəl,
Məni tərs oynatma gəl,
Hardasan?!

Mətinəm, yaş yarıdı,
Saçım dağlar qarıdı,
Üzüm sənə sarıdı,
Hardasan?!

*Mahizər Nur*



## Vaxtıdır

Vida et ey qəlbim ömrün yazına,
Aldandın aşiqə yalan vaxtıdır.
Dözmək çox çətindir eşqin nazına,
Sevgi çiçəyinin solan vaxtıdır.

Meyli yoxmuş səndə vicdansız yarın,
Məlhəmi yox imiş sən tək bimarın,
Eşq adda dumanlı uca dağların,
Gül-çiçəksiz yetim qalan vaxtıdır.

Bir ah çək, qoy duysun dağlar da, daş da,
Halına ağlasın qanadsız quş da,
Gülümü solduran şaxtalı qış da,
Könül diyarımın talan vaxtıdır.

Ağlı itirmişəm bu gənc yaşımda,
Şeytanlar dolanır, gəzir başımda,
Fəqanım duyular hər göz yaşımda,
Əcəlin zamansız gələn vaxtıdır.

Dərdimi dinləməz nə dost, nə sirdaş,
Mənə həmdəm olmaz nə bacı, qardaş,
Dəli şeytan deyir baş götür qaç,
Ömrünün danışıb, gülən vaxtıdır.

Bilsənki dünyada tək qalmısan sən,
Sanmaki ürəkdən bir də güləsən,
Ağarır saçların, gülmə deyəsən,
Ömrün köç təbilin çalan vaxtıdır.



*Yəhya Borçalı*

## Papiros

Bir neçə il çəkdim səni,
Zəhərlədin bədənimi,
Avammı sanırdın məni,
Verirdin ziyan papiros?

Çəkdim, ürəyim üzüldü,
Hisin qanıma süzüldü,
Bağrıma yara düzüldü,
Çoxdu zəhərin, papiros.

Zəhərlədin təmiz qanı,
Səndə insaf varmı, hanı,
Bada verdim şirin canı,
Eylədin ziyan, papiros.

Yəhya deyir, əl çək məndən,
Xeyir görmür heç kim səndən,
Neçəsini saldın əldən,
Eylədin ziyan, papiros.

## Darvazın

Ay ellərim sizə bircə sözüm var,
Yeyək, içək sağlığına Darvazın.
Yeyib, içib kef çəkənlər bizdədi,
Yeyək, içək sağlığına Darvazın.

Dörd yüz ildi qurulubdu təməli,
Yerə, göyə sığmır gözəl əməli,
Heç olmasın dərdi, olmasın qəmi,
Yeyək, içək sağlığına Darvazın.

Darvaz dedikləri meşəli yerdi,
Olmasın heç kimin azarı, dərdi,
Yəhya, insanları ər oğlu, ərdi,
Yeyək, içək sağlığına Darvazın.

## Onun

Gedəndə məclisə tam ağıllı ol,
Oturub durmağa seç gözəl bir yol,
Xatadan, bəladan tamam uzaq ol,
Desinlər ağıldan varıdı onun.

Nalayiq söz desən, millət xor baxar,
Bütün nifrətləri başına yaxar,
Bəd övlad olmaqdan bir de, nə çıxar,
Deyərlər ağıldan yoxudu onun.

Yəhya, çağırılan yerə get, etmə ar,
Çağırılmayan yeri gedib etmə dar,
Atalar sözünü saxla yadigar,
Desinlər ağıldan varıdı onun.

Azərbaycanlıların Mədəniyyət Mərkəzi
Region PRESS
İctimai qəzet
№13 (188) 30.10.2015
Qəzet 2008-ci il martın 15-dən çıxır

*«Mən elə bir qətlə yetiriləndəm ki, insanların insani duyğularını təhrik edirəm. Elə bir mömin yoxdur ki, məni xatırladıqda ağlamasın.»*

**İmam Hüseyn (ə)**

## 2015-ci ilin Nobel mukafatı laureatlarının adları açıqlandı

Uilyam K.Kempell (William C. Campbell), Satoşi Omura (Satoshi Omura), Yu Tu (Youyou Tu) - **Fiziologiya və tibb** üzrə laureatlar;

Takaaki Kadzita (Takaaki Kajita), Artur B. Makdonald (Arthur B. McDonald) - **Fizika** üzrə laureatlar;



Tomas Lindal (Tomas Lindahl), Pol Modriç (Paul Modrich), Əziz Səncər (Aziz Sancar) - **Kimya** üzrə laureatlar;



Svetlana Aleksiyeviç - **Ədəbiyyat** üzrə laureat;

Tunis Milli Dialoq Kvarteti (Tunis National Dialogue Quartet) - **Sülh** üzrə laureat.

## Bəytəkər kəndində "Vətənim Borçalı, elim Bəytəkər" adlı kitabın təqdimat tədbiri keçirildi

Bolnisi rayonunun Bəytəkər kəndində müəllifi Qüdrət xanım Bəytəkərli olan "Vətənim Borçalı, elim Bəytəkər" adlı kitabın təqdimat tədbiri keçirilib. Tədbir ağır ellərimizidən biri olan Bəytəkər kəndinin "Yal" deyilən ərazisində, açıq havada baş tutub. "Salam" Mədəni Xeyriyyə Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirə əslən Zol-Güvəcdən olan Qarabağ döyüşlərində şəhid olmuş Elşən Məmmədovun xatirəsini bir dəqiqəlik sükutla yad edildikdən sonra start verildi. Onu da bildirək ki, tədbirdə bir çox ziyalılar, Bəytəkər kəndinin əhalisi, Bolnisi rayon rəhbərləri iştirak ediblər. Qeyd edək ki, kitabın təqdimat tədbirində iştirak edə professor Mahmud Kamaloğlu, şair-tədqiqatçı Bəhram Mehdi, bir neçə dəfə beynəlxalq poeziya mükafatı laureatı, şair publisist Nizami Saraçlı, şairə Şövkət Dağlarqızı, şairlər Ziyadxan Sərdar, Əlixan Yəhyaoğlu, Çoban Rəşid, aşıq Elşad Kəpənəkçi, Aşıq Bafəli, Aşıq Eyvaz, Ayorta kənd orta məktəbinin direktoru Nofəl Əliyev, Qardabani rayonunun Kəpənəkçi kənd məktəbinin müəllimləsi Səadət Quliyeva, Bolnisi rayon Sakrebulosunun sədr müavini İmran Qasımov, Bolnisi rayon icra hakimiyyətinin Zol-Güvəc kəndi üzrə səlahiyyətli nümayəndəsi Farrux Sarıyev çıxış edərək belə bir kitabın ərsəyə gəlməsinə və belə bir tədbiri doğma yurdunda keçirdiyinə görə Qüdrət xanım Bəytəkərliyə təşəkkürlərini bidlirdilər, belə tədbirlərin hər bir kənddə keçirilməsinin vacib olduğunu və belə təqdimatların keçirilməsini bir bayram günü kimi dəyərləndirdilər. Tədbirin təşkilatçısı Maya Rəcəbovanın başçılığı ilə "Salam" Mədəni Xeyriyyə Mərkəzinin



üzvləri özlərinin rəngarəng repertuarları ilə tədbir iştirakçılarını dah da feyziyab edərək, onlara xoş əhval-ruhiyyə bəxş etdilər.

Kitab təqdimatında Azərbaycan Aşıqlar Birliyinin ən gənc üzvü olan Maksim Rəcəbovun saz ifaları, eləcə də onun Azərbaycan və gürcü dilində oxuduğu mahnılar açıq havada toplaşan hər kəsə xoş ovqat bəxş etdi. Onu da bildiririk ki, Bolnisi rayonu Sakrebulosunun sədr müavini İmran Qasımov rayonlarında bu cür tədbirin keçirilməsinə görə "Salam" Mədəni Xeyriyyə Mərkəzinə təşəkkürünü bildirdi.

Tədbirin sonunda şairə Qüdrət xanım Bəytəkərli öz kitabını imzalayaraq tədbir iştirakçılarına hədiyyə etdi.

**Nadir Almazoğlu**

## 27 yaşlı müsəlman qız İsveçin təhsil naziri oldu



***O, ölkə tarixinin ən cavan naziri oldu.***

Aida Hadzialik İsveçin təhsil naziri seçilib. Bu xanım ölkə tarixində seçilən ən cavan nazir oldu.

Aidə İsveçə ailəsilə Bosniya və Hersoqovinadan gəlib. O zaman onun 5 yaşı var idi. İlk dəfə vəzifəyə gələndə Aidanın 23 yaşı olub.

İsveçdə yaşayan müsəlmanlar artıq xanımın nazir seçilməsi xəbərinə çox sevinir.

Qeyd edək ki, İsveçin 10 milyon əhalisindən 500 mini müsəlmanlardır. Miqrantların bu ölkəyə gəlməsi isə, son zamanlar müsəlmanların sayını xeyli artırıb. Əlavə edək ki, Aida özü miqrant ailəsindəndir və hər zaman miqrantların hüquqlarının qorunması ilə gündəmdə olub.

## Yeni nəşr

Tanınmış pedaqoq, şair-publisist və tədqiqatçı Səməndər Məmmədovun "El sevəni aləm sevər" adlı kitabının üçüncü cildi Bakıdakı "Elm və Təhsil" nəşriyyatında işıq üzü görüb. Kitabda müəllifin portret oçerkləri, kitablara yazdığı resenziyalar, son illərdə qələmə aldığı şeirləri və eləcə də onun özünə ithaf olunmuş şeirlər və 60 illik yubileyi münasibətilə ünvanlanmış təbriklər yer alıb. Bildiririk ki, Səməndər Eyvaz oğlu Məmmədov 1954-cü ildə Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndində anadan olub. 1978-ci ildə Azərbaycan Dövlət Universitetinin (BDU-nun) filologiya fakültəsini bitirib. Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl Qələm", "Abdulla Şaiq" və "Araz" ali ədəbi mükafatları laueratı, "Qabaqcıl təhsil işçisi"dir.

İndiyədək "Faxralı", "Bir durna ayrıldı öz qatarından", "Payız çiçəyi", "Ümid qapısı", "Coşqun çay kimi", "Faxralıtək ağır elim var mənim", "Bir gəncin taleyi alt-üst olursa", "Nur çiləyənlər", "Ləkəsiz bir vicdan, böyük bir ürək", "Pedaqoji düşüncələr", üççildlik "Ağır elsən, Borçalıda adın var", "El sevəni aləm sevər" kitabının iki cildi və "İşıq ömrü yaşadı..." kitabları işıq üzü görüb.




## Başsağlığı

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi Az.TV-nin Gürcüstan üzrə müxbiri ***Şahismayıl Şəmmədoğluna*** anası

**Güllüzar İbrahim qızının**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi Azərbaycan İctimai Televiziyasının Gürcüstan üzrə müxbiri ***Çingiz Yaqubova*** əzizi

**Ənvər Alı oğlu Bədəlovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

## Qazlı su spirtli içkidən daha təhlükəlidir - xərçəng yaradır

Qazlı su həvəskarlarına heç də xoş olmayan xəbərimiz var. Amerikalı mütəxəssislər apardıqları araşdırma nəticəsində qazlı içkilərin qaraciyərə ən azı, spirt qədər ziyan verdiyini aşkarlayıblar. Lakin təhlükə bunula da yekunlaşmır. Mütəxəssislər qazlı içkilərin xərçəngə səbəb olduğunu da iddia edirlər.

Qazlı içkilər və spirt... "Bu ikisi arasında nə əlaqə var?" deməyə tələsməyin. Mütəxəssislər deyir ki, qazlı içkilərin tərkibindəki fruktoza qaraciyərin yağlanmasına səbəb olur ki, bu da sonda qaraciyər serrozu ilə nəticələnir.



Lakin qazlı içkilərin yaratdığı fəsadlar bunula yekunlaşmır. Bu suların tərkibindəki metilimidazol adlı kanserogen maddə insanı birbaşa xərçəng riski ilə üz-üzə qoyur. Rəngli qazlı sularda isə bu təhlükə ikiqat artıq olur.

Qeyd edək ki, Birləşmiş Ştatlarda aparılan sorğu zamanı bəlli olub ki, 6 yaşından yuxarı 70 faiz insan gün ərzində bir litr yarımdan çox qazlı su qəbul edir.

## Lətifələr



*Müəllim:*

*-Uşaqlar,nəyə görə öz sinif yoldaşınızı döymüsünüz?*

*-Çünki o, ev tapşırığını düzgün yazmamışdı.*

*-Bu axı, onu döyməyə bəhanə deyil.*

*-Axı, biz hamımız ondan köçürmüşdük.*

*****

*Elşən gözündə yumruq izi evə gəlir. Anası onu görüb həyəcanlanır:*

*-Bu nədi? Sənə nə olub?*

*-Başa düşürsən, ana, hər gecə saat 2-də mən sinif yoldaslarımdan birinin evinə zəng vurub soruşurdum:"Tapın görüm mən kiməm?"*

*-Nə olsun ki?*

*-Heeeç . Bu gün biri tapdı.*

*Təsisçi:* *Azərbaycanlıların Mədəniyyət Mərkəzi (AMM)*
*AMM-in sədri:* **Fazil HƏSƏNOV**

*Redaktor:* **Binnət ƏLİOĞLU**
*Məsul katib:* **İbrahimxəlil**
*Texniki redaktor:* **Əkrəm QƏHRƏMANOV**
*Kompyuter tərtibatçısı:* **Bahar MƏMMƏDOVA**

***Redaksiyanın ünvanı:***
Marneuli şəhəri, Çolokaşvili küç. 3
İndeks: 3000 Tel.: (+995 357) 22 29 29
Faks: (+995 357) 22 57 88
E-mail: regionpress@yahoo.com
Qəzetimizi Facebook səhifəmizdə də oxuya bilərsiniz:
https://www.facebook.com/regionpress.AMM

**Qeydiyyat şəhadətnaməsi:**
**09.09.2004. №43/5 z—9**

Fakta və ifadə olunan fikrə görə məsuliyyəti müəlliflər daşıyır.
Qəzet pulsuz yayımlanır.
**TİRAJ: 2000**